

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Nəciblik və xeyirxahlıq simvolu



3

SƏS

№ 151 (7076)

22 avqust 2024-cü il.
Qiyməti 60 qəpik

# Qafqaz regionuna qlobal güclərin, o cümlədən Rusiyanın da marağı artıb



2

# Ənənəyə çevrilən İKİLİ STANDARTLAR




8

## YAP Mərkəzi Aparatında MDB müşahidə missiyası qərargahının rəhbəri ilə görüş keçirilib



2

## Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır!



12

## Təbiətə qarşı genosid



7

## İxtisası və universiteti necə seçməli?



4

## Yeraltı "probka"



4

# Qafqaz regionuna qlobal güclərin, o cümlədən Rusiyanın da marağı artıb

**Beynəlxalq siyasi sistemdə baş verən transformasiya Qafqaz regionundakı vəziyyətə də təsirsiz ötüşməyib. Qafqaza yalnız regionun deyil, eyni zamanda, qlobal güclərin, o cümlədən Rusiyanın da marağı artıb. Bu barədə "Ritm Evrazii" analitik saytında dərc olunan materialda bildirilib.**

Yazıda diqqətə çatdırılır ki, Qafqaz Rusiyanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri hesab olunub. Bu baxımdan Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, Rusiya Prezidenti Azərbaycana 7 dəfə səfər edib. Bundan başqa hər iki ölkənin lideri beynəlxalq platformalar çərçivəsində çoxsaylı görüşlər keçiriblər. Budəfəki səfər ərəfəsində Rusiya Prezidentinin mətbuat xidmətindən bildiriblər ki, hər iki dövlət arasında Azərbaycan-Ermənistan sülh müqaviləsinin imzalanması, sərhədin demarkasiya və delimitasiyası, nəqliyyat-logistika və qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişafı məsələləri müzakirə ediləcək. Bunlarla yanaşı, Prezident Vladimir Putin ilə Prezident İlham Əliyev regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparacaqlar. Rəsmi açıqlamadan başqa Vladimir Putinin Azərbaycana səfərinin səbəbləri barədə müxtəlif qeyri-dəqiq fikirlər irəli sürüldü ki, bunlar da özünü doğrultmadı.



Avqustun 18-də Bakıya səfər edən Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən yüksək səviyyədə qarşılandı. Səhəri gün Rusiya Prezidenti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdi. Sonra Vladimir Putin, köməkçisi Yuri Uşakov, Baş nazirin müavini Aliksey Overçuk, xarici işlər naziri Serqey Lavrov Azərbaycan Prezidentinin iqamətgahına gələrək qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafı barədə danışıqlar apardılar.

Hər iki dövlət başçısının mətbuata verdikləri bəyanatdan aydın oldu ki, qarşılıqlı münasibətlərdə böyük irəliləyiş müşahidə olunur və 2022-ci ilin fevralında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında imzalanan Bəyannamənin bəndlərinə tərəflər əməl edirlər. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Rusiya nəqliyyat, energetika, humanitar sahələrdə əməkdaşlıq edir və bu səfər qarşılıqlı münasibətlərin inkişafı üçün səmərəli olacaq.

Vladimir Putin isə nəzərə çatdırdı ki, hər iki dövlət energetika, nəqliyyat, kooperasiya, yüngül sənaye sahələrində yaxın əməkdaşlıq əlaqələrinə malikdirlər. Rusiya Azərbaycan iqtisadiyyatına 4 milyard rubl həcmində investisiya yatırıb və ölkədə Rusiya kapitalına əsaslanan 1200 müəssisə fəaliyyət göstərir. Rusiya Prezidenti, həmçinin rus dilinə göstərilən yüksək münasibətə görə Azərbaycana təşəkkürünü bildirib.

Materialda diqqətə çatdırılıb ki, görüşün əsas məqamı regionda təhlükəsizlik məsələsinin müzakirəsi olub. Ukrayna istiqamətində yaranan çətinliklərə baxmayaraq Rusiya Cənubi Qafqazı diqqətdən kənarda saxlamaq fikrində deyil. Vladimir Putin bildirdi ki, son dövrlər baş verən hadisələr Rusiyanın Cənubi Qafqazdakı proseslərə qatılması zərurətini yaradıb. Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması və sərhədin demarkasiyası Rusiya üçün şad xəbər olar. Rusiya Prezidenti onu da bildirib ki, Azərbaycandakı danışıqlar barəsində Ermənistanın baş naziri Nikol Paşinyana məlumat verəcək.

Materialda, həmçinin qeyd olunub ki, səfər çərçivəsində dövlətlər arasında bir sıra əhəmiyyətli sənədlər imzalanıb. Bunlar da perspektivdə iqtisadi, siyasi, mədəni, ekoloji sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafına stimul yaradacaq. Vurğulanıb ki, Qərbin Azərbaycana təzyiqlərinə baxmayaraq rəsmi Bakı yaxın qonşusu ilə konfrontasiyaya getmək istəmir, əksinə əlaqələrini inkişaf etdirmək yolunu tutub. Bu isə praqmatik siyasi xəttin davam etdirilməsidir.

Prezident Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi münasib olduğu vaxtda Rusiyaya səfərə dəvət edib.

# YAP Mərkəzi Aparatında MDB müşahidə missiyası qərargahının rəhbəri ilə görüş keçirilib

**Avqustun 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası qərargahının rəhbəri Oleq Kuleba arasında görüş keçirilib.**

Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Oleq Kuleba MDB müşahidə missiyasının 2003-cü ildən etibarən Azərbaycanda seçkiləri müşahidə etdiyini söyləyib. O bildirib ki, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilər MDB missiyası tərəfindən Azərbaycanda müşahidə edilən 12-ci seçki olacaq.



MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verən qərargah rəhbəri hazırda heyətdə 132 nəfərin yer aldığını, onlardan 10 nəfərin uzunmüddətli müşahidə apardıqlarını qeyd edib. Onun sözlərinə görə, ilkin müşahidələr namizədlər üçün bərabər imkanların yaradıldığını, Mərkəzi Seçki Komissiyasının və onun yerlərdəki qurumlarının seçkilərə yüksək səviyyədə hazırlaşdığını göstərir. O.Kuleba, həmçinin missiya üzvlərinin fəaliyyətinə heç bir maneə yaradılmadığını və lazımi məlumatların əldə edilməsinə aidiyyəti qurumlar tərəfindən dəstək göstərildiyini bildirib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov MDB müşahidə missiyasının Azərbaycandakı fəaliyyətinin seçki təcrübəsinin mübadiləsi və seçki institutunun daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıqla bağlı gördüyü işlər və seçkiqabağı təşviqat kampaniyasının gedişatı haqqında məlumat verən YAP Sədrinin müavini Azərbaycanın zəngin və daim təkmilləşən seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn parlament seçkilərinin də rəqabətli mühitdə - azad, ədalətli, şəffaf və demokratik keçirilməsi üçün bütün şəraitin təmin edildiyini bildirib. YAP Sədrinin müavini MDB müşahidə missiyasını maraqlandıran sualları cavablandırıb, seçkilərin gedişatına dair kənar qiymətləndirmənin önəminə diqqət çəkərək missiyaya fəaliyyətində uğurlar arzulayıb.

# June Soomer: "Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkənlərin yanında olduğunu hər zaman göstərir"

Müasir dünyada hələ də müstəmləkəçilikdən əziyyət çəkən, boyunduruq altında olan ölkələr, insanlar var. Təəssüf ki, buna qaradərili insanlar daha çox məruz qalırlar. Bakı Təşəbbüs Qrupu çox mühüm platformadır və müstəmləkəçilikdən əziyyət çəkənlərin yanında olduğunu hər zaman göstərir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Niderlandın müstəmləkəçiliyi altında olan Boneyra adasının nümayəndə heyətinin üzvü, BMT yanında Afrikaəsilli Vətəndaşlar Forumunun üzvü June Soomer avqustun 21-də jurnalistlərə müsahibəsində söyləyib.




Təmsil etdiyi forumun afrikaəsilli insanların hüquqlarını müdafiə etdiyini diqqətə çatdıran nümayəndə heyətinin üzvü deyib: "Azərbaycanda olmaq, avqustun 22-də keçiriləcək beynəlxalq konfransa qatılmaq mənim üçün çox mühüm əhəmiyyətə malikdir.

Müstəmləkədən əziyyət çəkən insanların buraya gəlib öz səslərini dünyaya çatdırmaları çox yaxşı fürsətdir. Müstəmləkələrin və quldarlıq rejiminin afrikaəsilli insanlara hələ də təsir etməsindən danışmaq da vacibdir. Biz bu ölkələrin necə müstəqillik əldə edə biləcəyi haqqında müzakirələr aparmalıyıq. O cümlədən biz onların bu müstəqillik yolunda nələr etdiyinə baxmalıyıq".

# Nəciblik və xeyirxahlıq simvolu



Azərbaycanın çoxəsrlik tarixində dövlət üçün çox önəmli olan şəxsiyyətlər yetişmiş, onların şan-şöhrəti beynəlxalq arenada əks-səda doğuraraq ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına səbəb olmuşdur. Hər dövrün yetişdirdiyi ziyalı bir missiya olaraq Azərbaycanın sosial, iqtisadi, mədəni inkişafına imza ata biləcək məsələləri öz üzərinə götürməklə xalq qarşısında, vətəndaşlıq borcunun ödənilməsinə cəhd edir. Ölkənin ictimai-siyasi, mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza sahibliyini əməlləri ilə təsdiqləyib. Təbii ki, qadın gözəlliyi, qadın idarəsi, saflığı və sədaqəti xalqımızın milli-mənəvi dəyərləri sistemində formalaşmışdır. Tarixən Azərbaycanın mütəfəkkir qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi qiymətləndirilib. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malikdir. Qətibə xanım, Sara xatun, Məhinbanu, Xeyransa bəyim, Tuti Bikə və başqaları Azərbaycan qadının nümunəsidir. Bu gün müasirimiz olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva da məhz belə qadınların davamçısı olaraq Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malikdir. Azərbaycanda baş verən sıçrayışlarda, onun simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasında Mehriban xanımın fəaliyyəti, genişmiqyaslı layihələri diqqətdədir. Həyata keçirdiyi ölkədaxili layihələri yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi istiqamətində önəmlidir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində mahiyyət daşıyan addımları Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir. Öz varlığı ilə məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Onun fəaliyyəti Azərbaycan haqqında olan təsəvvürlərin ciddi şəkildə dəyişilməsi ilə nəticələnib. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail olub. Onun qəlbinin dərinliklərində olan vətənpərvəlik, milli heysiyyat kimi mənəvi dəyərləri məhz dünya arenasında Mehriban xanım Əliyeva isminə böyük bir məhəbbət yaratmışdır. Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda milli-mənəvi dəyərlərin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusisiliyinin dünyəviləşməsi istiqamətində Mehriban Əliyevanın gördüyü işlər tarixin bu günü üçün deyil, zamanın axarında əsrlərin yaddaşında iz buraxacaq hadisələrlə bağlıdır. Ziyalılığın ali zirvəsində olan Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər bir əsrin tarixi qədər möhtəşəm və alidir.

Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmişdir.

Yaradıcı düşüncəsi, geniş layihələrin gerçəkləşməsi Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən qədim Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə yanaşmada yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Azərbaycan mədəniyyətinin, onun imicinin yüksəldilməsində böyük xidmətlər göstərib. milli-mənəvi dəyərlərin təbliğatı istiqamətində gördüyü işlər ölkənin gələcək həyatının uğurlu nailiyyətləri ilə nəticələnib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə Mehriban Əliyeva tərəfindən yaradılan Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti nəinki Azərbaycanda, onun hüdudlarından kənarda belə əks-səda doğurub.

Mehriban xanım qısa bir zamanda xalqlararası münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyətini genişləndirdi. Məhz buna görə Heydər Əliyev Fondu bir sıra dost dövlətlərdə nümayəndəliklər yaratmağı, eləcə də bu ölkələrdə fəaliyyət göstərən analoji qeyri-hökumət qurumları ilə əməkdaşlıq əlaqələri qurmağı məqsədyönlü hesab edərək, Rusiya Federasiyasında, Rumıniyada, Türkiyədə və ABŞ-da nümayəndəliklərini yaratdı. Fondun bu nümayəndəlikləri Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırır.

## "MÜASİR DÜNYADA HƏR BİR ÖLKƏNİN İNKİŞAFI, ONUN DÜNYA BİRLİYİNƏ İNTEQRASİYASI ÜÇÜN TƏHSİLİN ROLU ƏVƏZSİZDİR"

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi, mədəni həyatında gördüyü işlərə diqqət yetirsək nə qədər möhtəşəm hadisələrin reallaşdığının bir daha şahidinə çevrilərik. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Azərbaycanın birinci xanımı çıxışlarının birində vurğulayır: "Müasir dünyada hər bir ölkənin inkişafı. onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir". Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı əsasında təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla proqram çərçivəsində müasir standartlara cavab verən məktəb binaları inşa olunaraq yenidən quruldu. "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin hər bir yerində - Xaçmaz rayonunun Palıdlı kəndində, Şabran rayonunun Gilavar kəndində, Bakı şəhəri Sabunçu rayonunun Pirşağı qəsəbəsində, Zaqatalada Ələddin Cavadov adına Bəhmətli kəndində və digər yerlərdə onlarla yeni məktəb binaları inşa edilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək göstərərək gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almalarına öz töhfəsini vermiş olur. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Qeyd edək ki, proqram hazırlanarkən Azərbaycanın məktəblərinin maddi-texniki bazasının vəziyyəti ətraflı öyrənilmişdir. Çox yaxşı, nümunəvi məktəblərimizlə yanaşı, acınacaqlı vəziyyətdə olan məktəblər də aşkarlanmışdır. "YeniləşənAzərbaycana yeni məktəb" Proqramını həyata keçirərkən ölkə üzrə vəziyyəti çox ağır hesab olunan 132 məktəb müəyyən edilmişdir. Bu məktəblərin hər birində videoçəkiliş aparılmışdır. Problemin həllinin ən yaxşı variantı həmin məktəblərin binaları qarşıdan yenisinin tikilməsi olmuşdur. Bunların 100, 200 və 400 yerlik məktəblər olacağı təyin edilmişdir. Fond tərəfindən artıq bu binaların əksəriyyətinin layihələri reallaşmışdır.

## "TƏHSİLƏ DƏSTƏK"

Fondun "Təhsilə dəstək" proqramı çərçivəsində isə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Təhsilə dəstək" layihəsi çərçivəsində Azərbaycandan kənarda belə, bu humanizm prinsiplərinə əsaslanan layihələr reallaşdırılır. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Həştərxanda yeni uşaq bağçası istifadəyə verilib. Heydər Əliyev Fondunun dəstəyi ilə Sarayevoda görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz istifadəyə verilib. ABŞ-ın Merilend ştatının Montqomeri dairəsində yerləşən ciddi fiziki və əqli qüsurlu uşaqların təhsil aldığı məktəblərə xeyriyyə yardımı göstərilib. Bu yardım əsasında məktəblər üçün kompyuterləşdirilmiş interaktiv lövhələr və əlil uşaqlar üçün müvafiq avadanlıq alınıb. Heydər Əliyev Fondu Fransanın Aşağı Normandiya regionun Orn departamentindəki Lüql musiqi məktəbinin bir zalının təmirinə yardım edib.

Mehriban xanım Əliyeva humanizm prinsiplərinə əsaslanaraq, köməyə ehtiyacı olan şəxslərə yardım edərək onların müalicəsinin təmin olunmasına da xüsusi diqqət ayırıb. Belə ki, kimsəsiz və dəstəyə ehtiyacı olan insanlara ehtiramla yanaşaraq, neçəneçə kimsəsiz və imkansız şəxslərə, ailələrə kömək əlini uzatmışdır. Valideyn himayəsindən məhrum olan uşaqların maddi-texniki bazasının yenidən qurulmasında gördüyü işləri xüsusi qeyd etməliyik. Həmin müəssisələr Avropa standartlarına uyğun bir şəkildə təşkil olunub. Uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nizami rayonunda inşa olunmuş yaşayış binasının istifadəyə verilməsi humanizmin ən yüksək nümunəsi olaraq qiymətləndirilir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə istifadəyə verilən bu məktəblər gənc nəslin təlim-tərbiyəsində, yüksək elmi biliklər əldə etməsinə öz təsirin göstərməkdədir. Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirlər həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib. İnanırıq ki, Mehriban xanım Əliyeva gələcək fəaliyyətində də bu strateji istiqamətlərdə möhtəşəm layihələrin həyata keçirilməsini davam etdirəcək.

***Zümrüd BAYRAMOVA***

# İxtisası və universiteti necə seçməli?



***Universitet təhsili insanın peşəkar və şəxsi inkişafında mühüm rol oynayır, ixtisas seçimi isə gələcək həyatını formalaşdıran vacib şərtlərdən biridir. Bu kontekstdə universitet və ixtisas seçərkən nəzərə alınmalı olan əsas amillər böyük əhəmiyyət kəsb edir. Harada oxumalı, hansı universiteti seçməli, hansı ixtisas daha perspektivlidir kimi suallar düzgün analiz edilməli, dəqiq qərar verilməlidir.***



İnsanın hansı universitetdə və hansı ixtisası seçəcəyi barədə düşünərkən onun istedadını, marağını, bilik səviyyəsini də tərəziyə qoymaq lazımdır. Eyni zamanda, dünyanın hansı yöndə inkişafını, hansı sahələrin perspektivli olduğunu da nəzərə almaq lazımdır. Çünki son 100 ildə baş verən texnoloji inkişaf, bütövlükdə bütün tarixi hadisələrdən daha sürətli baş verib desək, yanılmarıq. Texnologiya inanılmaz sürətlə irəliləyir, eyni zamanda bir çox peşənin irəliləməsinin qarşısını alır. Üstəlik, bu üstələməyə təkcə texnologiya deyil, eyni zamanda elmi, sosial, mədəni, ekoloji və iqtisadi inkişaflar da çox təsir edir. Ona görə peşə seçərkən, ixtisas axtarışında olarkən bu xırdalıqları unutmamaq, dövr ilə ayaqlaşan ixtisas seçmək lazımdır.



Ötən gün Azərbaycanda növbəti ixtisas seçiminə yekun vuruldu. Minlərlə abituriyent öz gələcəyini müəyyənləşdirdi, addımlayacağı yolu seçdi. Hansı universitet, hansı ixtisas olması bu addımların sürətinə, möhkəmliyinə də təsir edəcək təbii ki.

Ona görə də ixtisas seçərkən hərtərəfli düşünməli, müqayisə aparmalı və bütün şərtlər gözdən keçirilməlidir. Mütəxəssislər deyir ki, ixtisas seçimi üçün diqqət ediləcək məqamlar çoxdur. Ümumi qəbul planı, universitetlərdə ixtisaslar üzrə qəbul planı, dövlət sifarişli yerlərin sayı, bal aralıqları, keçən ilin keçid balları ixtisas seçimi zamanı vacib olan əsas məlumatlardır. Bundan əlavə, son 3 ilin analizini, keçid balını keçən abituriyentlərin sayını, abituriyentin maraq dairəsini, ixtisasların gələcək iş imkanlarını, universitetlərin müqayisəsini bilmədən ixtisas seçimi peşmanlıqla nəticələnə bilər. Ekspertlər əvvəlki illərin ballarına istinadən ixtisas seçimi etməyi doğru hesab etmir.

Abituriyentlər ixtisas seçimi edərkən mütləq günümüzün tələbatlı ixtisaslarını seçməklə yanaşı, əmək bazarında iş imkanları geniş olan ixtisas olmasına diqqət etməlidir. Elə məşhur ixtisaslar da var ki, ölkəmizin əmək bazarında məhdud imkanlara sahibdir. Təhsil eksperti Ramin Nurəliyev deyir ki, hazırda yüzlərlə ali təhsil müəssisəsini bitirənlər var ki, düzgün ixtisas seçimi etmədikləri üçün işsizdir və yaxud da, arzuladığı yerlərdə işləmirlər: "Düzgün karyera qurmaq üçün düzgün ixtisasa yiyələnmək lazımdır. Əgər bir abituriyent müəllim kimi özünü görmürsə, onun bu ixtisası seçməsi düzgün deyil. Gələcəkdə müəllim işləməyən birinin müəllimlik ixtisasını 4 il oxuması israfçılıqdır. Bununla yanaşı, bəzi iş imkanları məhdud olan ixtisaslar var ki, abituriyentlər ya məcbur seçim edir, ya da bilmədən seçir. Bitirdikdən sonra da günahı başqa yerlərdə axtarır."

Ekspert bildirir ki, abituriyentlər ixtisas seçimi edərkən real ölkəmizdəki tələbatları, gələcək karyerasını nəzərə alaraq düzgün seçim etməlidir. Öz prespektivinizə və potensialınıza uyğun olmayan, o sahədə işləmək istəmədiyiniz ixtisasları seçməyin. Cihaz mühəndisliyini, robototexnika mühəndisliyini seçim etmək üçün Yaponiyada magistr oxumaq yaxşı olardı. Bu imkanlardan məhrumsunuzsa, o ixtisasları seçməyin. Xüsusilə də, bəzi qızların beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasını bitirdikdən sonra işsiz qalmaması üçün dərin analiz etməsi lazımdır. 4 il sonra ailə qura bilər və ailəsi xaricə getməsinə razı olmaya bilər. Bu ixtisası bitirənlərin iş imkanlarının yarısı xarici olkələrdə olur".

Ümumiyyətlə, dövrümüzdə ən vacib məsələlərdən biri də akademik dilin ingilis dili olmasıdır. Həmçinin, dünyanın ən çox danışılan digər dillərində təhsil almaq da üstünlükdür. Eyni zamanda, təhsil dilindən başqa bütün vacib resurslar ən çox danışılan dillərdədir. Ona görə də tələbələrin ingilis dili biliklərini, xüsusən də peşəkar bacarıqlarını inkişaf etdirmələri şərtdir.

Bilmək lazımdır ki, seçdiyiniz ixtisas ömrünüzün sonuna kimi insan taleyini həll edəcək. Hüquqşünas olmaq potensialınız yoxdursa 4 il universitetdə oxuyaraq sonra diplomlu işsiz kimi evdə oturmalı olacaqsınız. Çünki ölkəmizdə artıq öz ixtisasını sevməyən gənclər ordusu formalaşır. İxtisas seçimi zamanı valideynlərin fikri də ciddiyə alınmalı, düşüncələri diqqətlə dinlənməlidir. Valideynin övladın yerinə ixtisas seçməsi doğru deyil, amma valideynin məsləhəti ilə ixtisas seçmi olması daha uğurlu ola bilər. Çünki valideyn artıq ölkənin əmək bazarını, hansı sahədə işsizliyin çox olduğunu bilir, həyatı yeni başlayan gəncdən daha çox təcrübəsi var.

Unutmayın, oxuyacağınız universitet gələcəyinizi formalaşdıracaq. İstəmədiyiniz bir ixtisası oxuyub həyatınız boyu özünüzü lazımsız, işəyaramaz hesab etməkdənsə, əvvəlcədən yüz ölçüb bir biçin. Əvvəlcə nə istədiyinizə qərar verin, ola bilər ki balınız azdır, istədiyiniz ixtisasa yetmir, yenə də mübariz olun, yenidən cəhd edin.

***Lalə Mehralı***



MƏTANƏT

# Yeraltı "probka"

***Bu şəhərdə yerüstü tıxaca çoxdan alışmışdıq. Elə bu səbəbdən də çox adam avtomobilini yerin üstündə saxlayıb enmişdi yerin altına ki, bəlkə burada tıxacsız bir həyat tapa bilər. Lakin görünən odur ki, bu tıxac bir alın yazısıdır, o da bizlərin alnına həkk olub.***

Hər il dərs ili başa çatanda sevincimizin həddi-hüdudu olmur. Çünki tələbələr rayonlara gedir, işləyənlərin məzuniyyət dövrü başlanır. Metroda, ictimai nəqliyyatda da sıxlıq azalır. Həqiqətən də müəyyən qədər azalma, seyrəklik hiss olunur. Bu səbəbdən metroda qatarların gəlişgediş intervalları da dəyişir. Lakin bu, ta o demək deyil ki, 10 dəqiqəyə yaxın qalasan yerin altında, necə deyərlər, "probka"da. Elə bugünkü kimi...

Deməli, bu gün səhər "İçərişəhər"ə gedən qatar "28 May" stansiyasından çıxanda oraya çatdım. Növbəti, "Dərnəgül" qatarı 4.21 saniyədə stansiyaya daxil oldu. Ardınca növbəti "İçərişəhər" qatarı isə 4.56 saniyədə stansiyaya gəlib çıxa bildi. Mənim kimi qatar gözləyənlər, hələ əvvəl gələnləri, onların eskalatordan enmə dəqiqələrini də nəzərə alsaq, 10 dəqiqədən artıq yerin altında qalmalı oldu. İsti hava da bir tərəfdən camaatı əldən saldı. Demək olar ki, qatarda nəfəs almaq mümkün deyildi.

Sonra nə baş verdi. Artıq mənzilbaşına yubanan insanlar eskalatorla yuxarıya qalxarkən qaçmağa başladılar. Metrodakı tıxacdan, qatarlar arasındakı uzun intervaldan danışdıq, elə söhbətin bu yerində bir qədər də özümüzdən danışaq.

Belə ki, biz bir qayda olaraq bilmədik ki, sağda dayanmalıyıq, sol tərəfi boş saxlamalıyıq. Elə bu gün səhər də belə idi. Qatarlarda yetərincə gecikən insanlar eskalatorla yuxarı qalxarkən sol tərəfdəkilər maneçilik yaratdı. "Ay qardaş, ay bacı, çəkil", "xahiş edirəm, yol verin", "icazə verin" istəkləri bir-birinə qarışdı.

Bir sözlə, camaat qatarlarda itirdiyi vaxtı eskalatorda tənzimləmək istədi, lakin buna nail olmaq heç də asan deyilmiş.

Nə isə... Bugünkü metroda olan vəziyyəti gözlülər olsun, görməsin. Amma təəssüf ki, hər zaman metroda və yerüstü ictimai nəqliyyatda olan problemlərdən danışırıq, lakin hələlik bir faydasını görmürük. Problemin biri bitir, digəri başlayır. Belə qənaətə gəlmək olur ki, bizə rahatlıq yoxdur.

Yaxşı, tətil başladı, qatarların intervalı da artırıldı. Lakin yayın bu qızmar günləri nədənsə nəzərə alınmadı. İstidən nəfəs almağın mümkün olmadığı vaxtda yerin altında 10 dəqiqə gözləməyin nə demək olduğunu anlamaq düşünürəm ki, heç də çətin deyil. Maraqlıdır, sərnişinlər nə üçün bu qədər yerin altında qalmalıdır? Nə üçün planlı şəkildə evindən çıxıb işə tələdən insanlar düz 8-10 dəqiqə metroda vaxt itirməlidir? 4-5 dəqiqəyədək interval nə deməkdir, həm də ən işlək stansiyalarda...

Yerin üstündəki tıxacdan yaxa qurtarıb metroya ümid gətirənləri də, gündəlik metrodan istifadə edənləri də bu səhərki vəziyyət hövsələdən çıxardı. Lakin çarə nədir? Camaat qaçaqaçla mənzil başına yollandı. Bəs görəsən bu problem adıçəkilən qurumun cavabdehləri tərəfindən fərq edildimi?

Edildisə, gözəl. Deməli, problemin aradan qaldırılacağı ümidilə yaşamaq olar.

*İran-İsrail cəbhəsində pat vəziyyət yaranıb, gizli döyüş, ölüm-dirim savaşı gedir, amma gözləntilərə adekvat deyil. HƏMAS lideri İsmayıl Haniyənin öldürülməsindən sonra güman etmək olardı ki, itirilmiş nüfuzunu bərpa etməküçün İrana mütləq müharibə lazımdır. Hər dəqiqə cənub qonşumuzun İsrailə hava zərbələri endirəcəyi gözlənilirdi, əvəzində ABŞ-ın da xahişi ilə raket hücumu dayandırıldı. Amma proksi qüvvələrin - HƏMAS, Hizbullah və husilərin müharibəsi öz axarındadır. Düzdür, bu hücumlar İsrailə bir o qədər təsir etməsə də, hazırlıq nəbzini yoxlamağa yetərli sayıla bilər. Bu gün tam əminliklə demək olar ki, İran İsrailə birbaşa hücum etməyəcək, əvvəlki kimi lokal müharibələrə üstünlük verəcək.*

# Yaxın Şərq: “pat”, yoxsa ”mat”?




## SEPAH tələsməmək qərarına gəlib

İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) nümayəndəsi Əli Məhəmməd Naini bildirib ki, ölkə ordusu HƏMAS siyasi bürosunun rəhbəri İsmayıl Həniyənin öldürülməsinə cavab olaraq İsrailə hücuma tələsməyi lazım görmür. Onun sözlərinə görə, İranın cavabı keçmiş əməliyyatlardan fərqli ola bilər. ”Zaman bizim tərəfimizdədir və cinayətkar sionist rejimə cavab gözləmək müddəti uzana bilər”, - deyə İİKK sözçüsü əlavə edib ki, İran komandirləri ”düşməni effektiv şəkildə cəzalandırmaq təcrübəsinə malikdirlər və tələsik hərəkət etməyə meylli deyillər”. O, həmçinin bildirib ki, bundan əvvəl İrana qarşı heç bir hücum cavabsız qalmayıb.




Bundan əvvəl İran Xarici İşlər Nazirliyinin sözçüsü Hüseyn Caberi Ənsari Tehranın cavabının xarakteri və vaxtının münaqişənin inkişafından asılı olduğunu bildirib. Onun sözlərinə görə, İranın cavabı ”hərtərəfli, lakin dəqiq” olacaq. İran iyulun 31-də HƏMAS siyasi büro rəhbərinin Tehranda öldürülməsindən sonra İsrailə qarşı böyük hücuma başlayacağına söz verib. Reuters xəbər verir ki, Qəzza zolağında atəşkəs əldə olunarsa, İran hücumu təxirə sala bilər.

## İsrail və HƏMAS inkar mərhələsində

Misirin xarici işlər naziri Sameh Şoukri bildirib ki, Qəzzada atəşkəs üzrə danışıqların növbəti mərhələsi avqustun 22-də Qahirədə başlayacaq. Bununla belə, nə İsrail, nə də Fələstinin Həmas qrupu indiyədək ciddi kompromislərə getmək istəyi nümayiş etdirməyib. ABŞ prezidenti Co Bayden HƏMAS-ı razılığa gəlmək istəməməkdə ittiham edib. Qrup buna cavab olaraq sövdələşmə bağlamağa hazır olduğunu bildirib - lakin İsrailin yenilikləri olmadan Misirlə razılaşdığı formada. Bu arada, İsrailin baş naziri Binyamin Netanyahu Fələstinlilərə güzəştə getməkdən imtina edib və əmin edib ki, HƏMAS-a güclü təzyiq son nəticədə qrupu İsrailin tələbləri ilə razılaşmağa məcbur edəcək.

Misirin xarici işlər naziri İsrail, ABŞ və Misir nümayəndə heyətlərinin iştirakı ilə avqustun 22-də Qahirədə danışıqların ikinci raundunun başlayacağını açıqlayıb. Müzakirələrin əsasını avqustun 16-da təqdim olunan Amerika sülh planı təşkil etməlidir. ABŞ öz layihəsini ictimaiyyətə nümayiş etdirməyib, lakin hər iki tərəfin istəklərini nəzərə aldığını iddia edir. Bununla belə, Həmas avqustun 20-də Amerikanın təklifini tənqid edərək, bunun vasitəçilərin son iki ayda müzakirə etdiklərinə uyğun olmadığını qeyd edib. Qrup ABŞ-ın HƏMAS-ın rədd etdiyi yeni plana İsrail dəyişikliklərini daxil etdiyini vurğulayıb.

Qətərin ”Əl-Ərəbi Əl-Cədid” qəzetinin mənbələri hərəkatın qeydində üç belə qəbuledilməz redaktə olub. Bu, İsrailin Qəzza-Misir sərhədindəki Filadelfiya dəhlizində öz ordusunu saxlamaq tələbidir, anklav daxilində fələstinlilərin hərəkətinə nəzarət etmək üçün sektorun şimalı və cənubu arasında keçid məntəqələrinin yaradılması, İsrailin girovlar müqabilində həbsdən azad etmək istədiyi fələstinli məhbusların sayının azaldılması. Qəzet qeyd edir ki, Həmas guya İsrail ordusunun Qəzzadan çıxarılmasının vaxtı ilə bağlı çeviklik nümayiş etdirib - baxmayaraq ki, qrup əvvəllər atəşkəsin ilk günlərində bütün qoşunların zolağı tərk etməli olduğunu israr edirdi.

Həmas Siyasi Bürosunun üzvü Süheyl əl-Hindi ”Əl-Ərəbi əl-Cədid”lə söhbətində qrupun danışıqlara hazır olduğunu, lakin İsrailin yeni tələbləri olmadığını açıqlayıb. O, həmçinin bir gün əvvəl qrupu danışıqlardan imtina etməkdə ittiham edən ABŞ prezidenti Co Baydenin bəyanatını aldadıcı adlandırıb.




”Qətər və Misirdəki vasitəçilər bilirlər ki, hərəkat danışıqların bütün əvvəlki raundlarına həmişə müsbət və məsuliyyətli münasibət bəsləyib və hər zaman razılaşmanın əldə olunmasına mane olan, yeni şərtlər və tələblər irəli sürən Netanyahu olub”, - Həmas rəsmisi vurğulayıb.

ABŞ və Misir Fələstinin tələblərini nəzərə alıb və son iki gündür İsrail rəhbərliyinə Filadelfiya dəhlizindəki hərbi mövcudluğunu tərk etməsi üçün təzyiq göstərir, bu xəbəri Axios portalı yayıb. Portalın məluatına görə, İsrail, Misir və Amerika nümayəndələri avqustun 18-də və 19-da Qahirədə görüşüblər. İclasda İsrail Filadelfiya dəhlizindəki qoşunlarının sayını azaltmağa hazır olduğunu, lakin yenidən davam etmək üçün dəhliz vasitəsilə yaraqlıların və silahların hərəkətinin qarşısını almaq üçün tamamilə geri çəkilmədən imtina etməyəcəyini bildirib. Misir Qəzza ilə sərhəddə bir dənə də olsun İsrail əsgərinin olmamasında israr edərək belə bir qismən tədbirdən imtina edib. Axios yazır ki, Benyamin Netanyahu İsrailin fələstinlilərə güzəştə getməməsini israr edir. Siyasətçinin fikrincə, yəhudi dövlətinin güclü mövqeyi HƏMAS-ı İsrail şərtləri ilə müqavilə imzalamağa məcbur etməlidir. Ancaq hər kəs baş nazirin fikirlərini bölüşmür.

## İsrail və HƏMAS görüş ərəfəsində paylarını artırırlar

Danışıqlar qrupu guya cənab Netanyahudan onlara daha çox fəaliyyət azadlığı verməsini və son tələblərdən geri çəkilməsini tələb edib. Əks halda, sövdələşmə sadəcə olaraq qeyri-mümkün olacaq, nəşr adının çəkilməsini istəməyən yüksək rütbəli İsrail rəsmilərinə istinadən yazır. Onların fikrincə, Benyamin Netanyahu HƏMAS-ın onları rədd edəcəyini əvvəlcədən bilə-bilə İsrailin tələblərini qəsdən sərtləşdirib. Baş nazirin ofisi bu məlumatı şərh etməyib.

*Ardı Səh. 6*

Əvvəli səh. 5

Girovların ailələri də danışıqların dalana dirənməsindən hiddətlənib (Baş nazirliyin müşaviri David Gendelmanın sözlərinə görə, 109 İsrail vətəndaşı HƏMAS-ın əsirliyində qalır). Məyusedici xəbər İsrail Müdafiə Qüvvələrinin Qəzzanın cənubundakı Xan Yunisdə altı israilli girovun cəsədini tapması xəbəri ilə üst-üstə düşüb. İDF öz kəşfiyyat məlumatlarına istinadən iyun və iyul aylarında onlardan beşinin öldüyünü bildirib. Hərbçilərin məlumatına görə, bu insanlar 2024-cü ilin əvvəlində Xan Yunisdə öldürülüb. Ordu onların ölüm səbəblərini, o cümlədən girovların İsrailin atəşi zamanı ölmə ehtimalını araşdırmağa davam edəcəyini bildirib.

İsrail ordusu altı israillinin cəsədinin tapılması barədə məlumat verdikdən dərhal sonra baş nazir Netanyahu girovların qohumları ilə görüş keçirib. Daha sonra həlak olanların yaxınları bildiriblər ki, hökumət başçısı guya etiraf edib ki, o, ”sövdələşmənin baş tutacağına əmin deyil”. Bu arada Benyamin Netanyahunun ofisi bildirib ki, görüş zamanı baş nazir İsrailin hərbi kampaniyasının əsas məqsədini radikal qruplaşmanın tamamilə məhv edilməsi adlandırıb. ”İsrail HƏMAS-ı hakimiyyətdən uzaqlaşdırmaq və onun hərbi potensialını məhv etmək üçün hər cür səy göstərir və bu məqsədə çatacaq”, - deyə siyasətçi vurğulayıb: ”İsrail gərgin təzyiqlərə baxmayaraq, girovları geri qaytarmaq və strateji təhlükəsizlik aktivlərini qorumaq üçün hər cür səy göstərir”. Hökumət başçısı ”sövdələşmənin birinci mərhələsində maksimum sayda girovların azad edilməsinə imkan verəcək şərtlər” axtardığını da açıqlayıb. Hər iki tərəfin əhəmiyyətli kompromislərə getmək istəməməsini nəzərə alaraq, bu sövdələşmənin işə yarayıb-yaramayacağı Qahirədə keçiriləcək danışıqların növbəti raundu ilə müəyyənləşəcək.



## Blinken: İsrail əsgərlərinin bir hissəsini Qəzzadan çıxarır

ABŞ dövlət katibi Antoni Blinken bildirib ki, İsrail Qəzza zolağında atəşkəs razılaşmasının bəzi İDF bölmələrinin anklavdan çıxarılmasını nəzərdə tutan bəndini təsdiqləyib. Eyni zamanda o qeyd edib ki, İsrail hərbçilərinin təqvim və əraziləri tərk edəcəkləri hələ razılaşdırılmayıb. Avqustun 20-də gecə Antoni Blinken Qəzza zolağındakı vəziyyəti həll etmək məqsədi ilə davam edən Yaxın Şərq turu çərçivəsində Qətərə gəlib. Dohada o, əmir Təmim bin Həməd əl Tani ilə danışıqlar aparıb. Onlar xüsusilə atəşkəs və İsrail girovlarının qaytarılması üçün Amerikanın sülh planını müzakirə ediblər. ABŞ bunu açıq şəkildə nümayiş etdirməyib, lakin Amerika rəsmiləri layihənin həm İsrailin, həm də Fələstinin Həmas hərəkatının istəklərini nəzərə aldığını deyirlər.

Qətəri tərk etməzdən əvvəl mətbuat konfransında çıxış edən Blinken deyib ki, müqavilə İsrail Müdafiə Qüvvələrinin qoşunlarının Qəzzadan çıxarılmasının vaxt cədvəlini və yerlərini çox aydın şəkildə müəyyən edir və İsrail bununla razılaşıb. HƏMAS daha əvvəl Amerika planını tənqid edərək, bunun vasitəçilərin müzakirə etdiyi təkliflərə uyğun olmadığını bildirmişdi. Hərəkat nümayəndələrinin sözlərinə görə, ABŞ öz layihəsinə İsrail redaktələrini daxil edib, HƏMAS bunu rədd edib. Qətərin ”Əl-Ərəbi Əl-Cədid” qəzetinin məlumatına görə, söhbət xüsusilə İsrailin Qəzza və Misir sərhədindəki Filadelfiya dəhlizində öz ordusunu saxlamaq tələbindən gedir. Qəzzada atəşkəsə dair danışıqların növbəti mərhələsi avqustun 22-də Qahirədə başlayacaq.



# Yaxın Şərq: “pat”, yoxsa ”mat”?





## İsrailin Həmasla müharibəsi kontekstində ABŞ-Çin rəqabəti

ABŞ Yaxın Şərqdəki hərbi-siyasi münaqişənin hərtərəfli həlli üçün diplomatik potensialından istifadə etməkdə davam edir. Bu mənada ABŞ dövlət katibi Antoni Blinkenin avqustun 18-də İsrailə səfərinə təkcə İsrailin HƏMAS-la müharibəsi prizmasından deyil, eləcə də İranyönlü digər etibarlı şəxslərdən baxmaq lazımdır. Ağ Ev ilk növbədə ÇXR-in yerli iqtisadi, siyasi və hərbi proseslərə təsirinin artması fonunda Yaxın Şərq regionunda öz mövqelərinin zəifləməsinin qarşısını almağa çalışır. Məlum olduğu kimi, Pekin İsrail və HƏMAS yaraqlıları arasında münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır və həmişə Fələstin Muxtariyyətinin BMT-nin müəyyən etdiyi ərazi və məkan planlaması çərçivəsində öz dövlətçilik hüququna malik olduğunu vurğulayır. Üstəlik, Çin İsrailin İordan çayının qərb sahilinə dair siyasətini dəstəkləmir və yəhudi dövlətinin hökumətini ölkənin ən şərq bölgələrində məskunlaşma planlarına görə tənqid edir. Çin Kommunist Partiyasının funksionerləri yaxşı bilirlər ki, İsrail Vaşinqtonun Yaxın Şərqdə ən yaxın müttəfiqidir, bu isə o deməkdir ki, İsrailin mövqelərinin güclənməsi qaçılmaz olaraq Amerikanın qələbəsinə və nəticədə Pekinin zəifləməsinə gətirib çıxarır.

Birləşmiş Ştatlar da öz növbəsində bu mərhələdə regionun hər hansı digər dövlətləri ilə istər ideoloji, istər siyasi, istərsə də ticarət-iqtisadi müstəvidə belə yaxınlaşmanın mümkünsüzlüyünə görə İsraili dəstəkləməyə bilməz. Prezident Cozef Bayden dəfələrlə vurğulayıb ki, Vaşinqton heç vaxt İsrailə, o cümlədən təcavüz halında özünümüdafiə hüququna dair dəstəyindən əl çəkməyəcək. İki demokratik ölkə arasında çox sıx əməkdaşlıq uzun tarixə malikdir.

Çin, təbii ki, son il yarım ərzində İsrail-Çin münasibətlərinin pisləşməsindən məmnun deyil, lakin artıq ABŞ-a təslim ola bilməz. İki müasir fövqəldövlət arasında dünya iqtisadiyyatında və siyasətində hegemonluq uğrunda qarşıdurma davam edir və regional dominantlıq dövlətlərarası ticarət-iqtisadi, siyasi və diplomatik proseslərə təsirin yayılmasında əsas amilə çevrilir. Bu cür rəqabət formalarının qanunları belədir. Vaşinqton və Pekin dünyanı təsir zonalarına bölməyə çalışır və bu mənada regional mübarizə həmişə güclü dövlətlər arasında ”soyuq” münaqişənin mühüm tərkib hissəsi olub.

Pekin Yaxın Şərqdə neft bazarı, əmək bazarı, investisiya layihələri, eləcə də əsas ərəb ölkələri (BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı) ilə biznes tərəfdaşlıqları da daxil olmaqla böyük potensial görür. Buna görə də Prezident Si Cinpin tez-tez ölkələrlə, o cümlədən Çin-Ərəb Əməkdaşlıq Forumu (CASCF) və digər Çin-Ərəb proqramları vasitəsilə güclü ikitərəfli əlaqələrin qurulmasının vacibliyindən danışır. Aydındır ki, ABŞ Çinin bəlkə də beynəlxalq aləmdə əsas antaqonistləri olmaqla, İsrailə qarşı baş nazir Binyamin Netanyahunun rəhbərlik etdiyi İsrail hökumətinin hərəkətlərinə ciddi təsir göstərə biləcək ərəb koalisiyasının qurulmasına heç vaxt icazə verməyəcək. Eyni zamanda, Çin, şübhəsiz ki, ərəblərin mövqelərini gücləndirməyə ümid edir, ən azı, Livan və HƏMAS-ın 7 oktyabr 2023-cü ildən sonra uğursuz hərəkətlərinə görə.

Bununla belə, bu və ya digər şəkildə Yaxın Şərqdə böyük müharibəni istəməyən və gərginləşməyə hazır olmayan ABŞ-ın bəzi ərəb müttəfiqləri haqqında susmaq tamamilə ədalətli olmazdı. ”Sülh tərəfi”nin belə ölkələrinə, ilk növbədə, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və Səudiyyə Ərəbistanı daxildir. Bu dövlətlər çətin ki, İsrail və ABŞ-la mövcud müqavilə və razılaşmalarla vidalaşsınlar, Çinə üz tutsunlar. Pekinin Amerika müttəfiqləri arasında fikir ayrılığı yaratmaq üçün hələ o qədər güclü diplomatik təsir imkanları yoxdur. Eyni zamanda, Çinin xarici siyasət potensialı HƏMAS-ın İsrailə qarşı müharibəsində Fələstin tərəfdarı mövqe tutmağa imkan verir.

Lakin Çin dolayı yolla Pekinin Avro-Atlantik alyanslara alternativ olaraq fəal şəkildə inkişaf etdirdiyi geostrateji layihələrin köməyi ilə Yaxın Şərqdəki siyasi proseslərə təsir etmək iqtidarındadır. Söhbət Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), ”Kəmər və Yol” və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutundan (TİTR) gedir. Bu təşəbbüslər Çin rəhbərliyinə tərəfdaş ölkələrdə ticarət və maliyyə ekspansiyasını həyata keçirməyə, daxili bazarda yer tutmağa və müəyyən hökumətlərin zəruri siyasi qərarlarının qəbulu üçün lobbiçilik etməyə imkan verir.

ŞƏT-ə xüsusi diqqət yetirilməlidir. 2023-cü ilin iyulunda İsrailin regiondakı əsas strateji rəqibi olan İran bu təşkilatın tamhüquqlu üzvü oldu. İran rəhbərliyi ilə ÇXR arasında davam edən yaxınlaşma istər-istəməz Pekinin təkcə İsraillə deyil, həm də ABŞ-la münasibətlərində böhrana gətirib çıxarır. İranın ŞƏT-ə daxil olmasını dəstəkləməsinin Çinin Yaxın Şərqdə sülh proseslərinin təşəbbüskarı kimi reputasiyasına mənfi təsir etdiyi şübhəsizdir. Gərginliyin artması ilə təkcə İsrail-Fələstin münaqişəsində deyil, digər qaynar nöqtələrdə də Çinin ”sülh diplomatiyasına” inamsızlıq artacaq.

Çox güman ki, biz Yaxın Şərqdə təkcə İsrailin HƏMAS-la müharibəsi kontekstində deyil, digər sahələrdə də gərginliyin azalmasının şahidi olacağıq. Çox vacibdir ki, sülh sazişləri, eləcə də ən azı müvəqqəti atəşkəs haqqında sazişlər bağlanarkən planetin aparıcı dövlətlərinin qarantları olsun.




ABŞ və Çin arasında hegemonluq uğrunda rəqabət fövqəldövlətlərin regional liderlərin arxasında dayanacağı, beynəlxalq münasibətlərdə hökmranlıq uğrunda qanlı mübarizə aparacağı növbəti ”Koreya” və ”Vyetnam” müharibəsinə çevrilməməlidir. Əgər Vaşinqton və Pekin elitaları bu qənaətə gələ bilsələr, bəşəriyyətin hələ də dinc gələcək üçün şansı var.

**V.VƏLİYEV**

# Təbiətə qarşı genosid

Qarabağ iqtisadi cəhətdən həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğundan bu ərazinin coğrafi mövqeyi və təbii xüsusiyyətləri ermənilərin diqqətində olmuşdur. "Böyük Ermənistan" yaratmaq eşqi ilə yaşayan ermənilər öz məqsədlərini həyata keçirmək üçün törətdikləri əməllərinin nəticəsində 30 ilə yaxın Azərbaycanın işğal altında olan ərazisində talançılıq missiyalarını vəhşicəsinə həyata keçiriblər. Məlumdur ki, tarixi kökü olmayan və ərazinin tarixi ilə heç bir bağlılığı olmayan ermənilər qəddarcasına Qarabağın və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsini dağıdıblar. Talançılıq missiyasını reallaşdıran Ermənistan "sivilizasiyalı" dövlət kimi dünya ölkələri tərəfindən qəbul olunmuş konvensiya, qərar, bəyanat və qətnamələrə əməl etməyib. İşğaldan azad olunmuş rayonlarda 152 ədəd belə ağac növü, 13197,5 ha qiymətli meşə sahələri, 5 ədəd geoloji obyekt qalmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb". Dövlət başçısı onu da qeyd edib ki, işğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220-230 min hektar idi. Zəngilan bölgəsi də hələ qədim zamanlardan sıx meşələri, münbit vadiləri, yaşıl bitki örtüyü, gur sulu çayları ilə diqqəti cəlb etmiş məkan olub. Buranın Çinar meşəsi təkcə Zəngilan rayonunun deyil, bütün Azərbaycanın flora-faunasının zənginliyində müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada ikinci, bəlkə də birinci meşədir.












## 968 HEKTAR MEŞƏ KÜTLƏVİ QIRILIB

Faşist ideologiyasına malik olan ermənilər 30 ilə yaxın işğal altında olmuş Azərbaycan ərazilərindəki meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə vurub. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib.

Bu ərazilərdə adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələr var. Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə kütləvi qırılıb və mebel istehsalı üçün Ermənistana göndərilib. Elə həmin ərazidə olan ən məşhur mineral su olan İstisu bulağı "Karlovı varı" (Çexiya) suyunun tərkibi ilə demək olar ki, eynidir, bəzi göstəricilərə görə hətta ondan da üstündür. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, adı çəkilən mineral su Ermənistanın "Cermuk" şirkətlər qrupu tərəfindən Kəlbəcər rayonu ərazisindəki "İstisu"dan doldurularaq qablaşdırılıb, doldurulmuş qabların üzərində isə Ermənistanın turizm zonası kimi tanınan Cermuk yaşayış məntəqəsinin ərazisindəki bulaqlardan doldurulması barədə fars dilində məlumat və kimyəvi tərkibi yazılıbmış.

Dünyanı ən nadir flora və faunası ilə zəngin olan Azərbaycan istirahət guşəsi kimi bütün imkanları özündə birləşdirir. Burada on bir iqlimdən doqquzunun mövcudluğu Azərbaycanın həqiqətən də cənnət beşiyi olduğunu əsasladıran amildir ki, ta qədimdən bu günə kimi tarixi sərvətləri ilə ölkəmizin qonağı olan insanların marağına səbəb olmuşdur. 30 ilə yaxın işğal altında olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının əraziləri əkilib-becərilməmiş və ona görə də böyük ekoloji fəlakət yaşanılmışdır. Təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını, iddialı mövqedən çıxış edib, özünəməxsus formanı tətbiq etməsi ilə yanaşı, bir məntiqin də gerçəkliyini təsdiqləyir. Bu, ermənilərin Qarabağ ərazisində müvəqqəti olduğunu təsdiqləyən faktor idi. Mənbələrdə göstərilir ki, ermənilər təbii ehtiyatlardan, faydalı qazıntı yataqlarından vəhşicəsinə istifadə edib. Asan istifadə edilə bilən mineral sular, müxtəlif texniki materiallar, ehtiyatlar, daha çox mənimsənilib.

## DÜNYA TARİXİNİN QƏDİM ABİDƏLƏRİ - AZIX VƏ TAĞLAR MAĞARALARI

Qeyri-qanuni bir şəkildə Qarabağı işğalda saxlayan, ekoloji şəraitin qorunması haqqında beynəlxalq təşkilatlar qarşısında heç bir məsuliyyət daşımayan ermənilər ekoloji mühitin daha da kəskinləşməsinə gətirib çıxarmışlar. Bu, Qarabağ torpağının təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətidir. Belə ki, Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayon ərazisinə yaxın olan Azıx və Tağlar mağaraları dünya tarixinin qədim abidəsi kimi YUNESKO-nun siyahısına düşmüşdür. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olub.

Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bunun arxasında ermənilərin utopiyaları, eləcə də xalqın tarixinə qarşı təcavüz planı dayanır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan "Daş-başı" və "Leşkar" meşələrində ermənilərin yanğın törətməsi də bir faktdır. "Leşkar" meşə sahəsində isə yararlı ağacları tam qırıb aparıblar. Tikinti materialı kimi Ermənistan Yunanıstana və İrana ixrac etdiyi ağac materialını istehsal etmək imkanında deyildi.

Dünya şöhrətli qırmızı palıd yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlamada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. 1991-ci il mart ayında aparılan yoxlama nəticəsində ermənilər tərəfindən heyvanların və quşların sayı xeyli azalmışdır.

## NƏSLİ KƏSİLMƏKDƏ OLAN BİTKİ VƏ HEYVAN NÖVLƏRİ MÜHAFİZƏ OLUNUR

Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş cüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Bu yasaqlıqdan işğal dövründə ermənilər vəhşicəsinə istifadə ediblər.

Azərbaycan 44 günlük Vətən müharibəsini qələbə ilə başa çatdıraraq tarixi ədaləti bərpa etdi. Düşməni torpaqlarından qovaraq, diz çökdürdü. Bu müharibədə xalqımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. Dövlət başçısı Sərkərdəlik məharəti nümayiş etdirərək Qarabağın Xilaskarı kimi tarixə adını həkk etdi. Bu gün üçrəngli Azərbaycan bayrağının Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanması ölkəmizin gücünün və qüdrətinin təntənəsidir. Erməni vandalları, faşistləri tərəfindən viran qoyulmuş şəhər və kəndlərimizə Azərbaycan bayrağı sancılıb. Bu gün həmin ərazilərin bərpası ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Erməni vandalları 30 il ərzində insanları qətlə yetirib, soyqırımları törətməklə yanaşı, ekoloji terrorlar da həyata keçirərək ətraf mühitə, təbiətə böyük zərbələr endiriblər. Bu əlbəttə ki, təbiətə qarşı genosiddir.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də məhz işğaldan azad olunan ərazilərdə bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu baxımdan həmin ərazilərdə bioloji müxtəlifliyin bərpası, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi istiqamətində işlər aparılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ənənəyə çevrilən İKİLİ STANDARTLAR

***Ukraynanın aldığı zirehli maşınlardan həmin ölkənin Rusiya ərazisində sərbəst istifadə etməsinə Kanadanın icazə verməsi, bütün dünyanın da bunu ədalətli hesab etməsi və bununla belə, ölkəmizə qarşı mütəmadi olaraq, qeyri-müəyyən, bəzən isə açıq-aşkar düşmənçilik xarakterli bəyanatlar verilməsi ikili standartlardan xəbər verir. Görünən odur ki, Azərbaycana qarşı köklü və sistemli olaraq, ədalətsizlik əyani şəkildə nümayiş etdirilib və bu hal hələ də davam edir. Qərbə xas olan ikili standartların tətbiqinin hələ də davam etdiyini növbəti dəfə müşahidə etməkdəyik və belə görünür ki, ölkəmizə qarşı ikili standartların tətbiqi bir növ ənənəyə çevrilib.***




## Azərbaycana münasibətdə haqq-ədalət nəzərə alınmır və ikili standartlar ədalətli yanaşmaya imkan vermir

Zirehli maşınlardan Rusiya ərazisində sərbəst istifadə edilməsinə Kanadanın icazə verməsi barədə tanınmış mətbuat səhifələrində, məsələn, CBS telekanalında məlumatlar yer alır. CBS telekanalının məlumatına görə, bu barədə cümə axşamı Kanada Milli Müdafiə Departamenti məlumat yayıb. Bütün bunlar isə, təbii ki, diqqəti cəlb etməyə bilməz. Yayımlanan geniş məlumatlar təsdiq edir ki, Azərbaycana olan münasibətdən fərqli olaraq, digər ölkələr barədə ədalətli yanaşma, hətta dəstək və müdafiə haqqında düşünülür. "Ukraynalılar vətənlərini necə müdafiə edəcəklərini hamıdan yaxşı bilirlər və biz onların imkanlarını dəstəkləməyə sadiqik. Kanada Ukraynaya verilən hərbi texnikanın istifadəsinə coğrafi məhdudiyyətlər qoymur", deyə Müdafiə Nazirliyinin sözçüsü Andree-Anne Poulain mətbuata açıqlamasında bildirib. Maraqlıdır, məgər azərbaycanlıların öz vətənlərini necə müdafiə edəcəklərini yaxşı bilmələri barədə şübhələri var, yoxsa, bizim öz vətənimizi müdafiə etmək haqqımızı başa düşmək çətindir? Bəs biz öz vətənimizi, öz torpaqlarımızı müdafiə etməmişikmi ki, bizə dəstək barədə onlar heç fikirləşməyiblər? Axı biz öz torpaqlarımızı işğaldan azad etmək uğrunda mübarizə aparmışıq və haqlı mübarizəmiz də ədalətli, eləcə də məntiqi nəticə ilə nəticələnib, ərazilərimiz də işğaldan azad edilib. Axı biz azərbaycanlılar da öz haqlarımız, hüquqlarımız uğrunda döyüşmüşük və bizə məxsus olanı geri qaytarmaq üçün şəhidlərimiz, qazilərimiz öz canlarını, qanlarını vətən uğrunda əsirgəməyiblər, fəda ediblər. Bunu başa düşməkdə çətinlik çəkirlər, yoxsa özlərinə məxsus ədalətsizlikdən, ikili standartlardan əl çəkə bilmirlər? Əks halda, Müdafiə Nazirliyinin sözçüsü Andree-Anne Poulain belə ifadələri təkcə Ukrayna və ukraynalılar haqda yox, elə bizim haqqımızda da səsləndirərdi. Amma biz bunun nə müharibədən öncə, nə müharibə dönəmində, nə də müharibədən sonrakı dövrdə şahidi ola bilmədik. Belə çıxır ki, söhbət Azərbaycandan gedəndə haqq və ədalət unudulur və bizim haqq işimizin dəstəklənməsi ağıla da gəlmir. Bunu ədalətli hesab edirlər? Budurmu ədalət dedikləri? Bu şəkildə ədalətsiz, ikili yanaşma belə çıxır ki, hələ uzun müddət Qərb üçün bir ənənə olacaq və haqsızlıq hələ uzun sürəcək.

## Ölkəmizə qarşı ədalətsizliyin, ikili standartların qabarıq şəkildə ortaya çıxdığı qəbul olunmaqdadır və bunu bütün dünya da yaxşı görür

Cümə axşamı Ukrayna sərhədi boyunca CNN tərəfindən lentə alınan görüntülərdə Kanada istehsalı olan Senator patrul avtomobillərinin Rusiya sərhədini keçdiyi öz əksini tapır. Bundan əlavə, Ottava artıq Kiyevə, o cümlədən səkkiz Leopard 2A4, bir neçə onlarla zirehli maşın və M-777 göndərdiyi də gizli deyil. Sözsüz ki, Ukrayna ilə Kanada arasında münasibətlərin inkişaf dərəcəsini və xarakterini qiymətləndirmək kimi bir niyyətimiz yoxdur və bununla bağlı hansısa narazılıq da ifadə edə bilmərik. Amma biz Kanada tərəfinin bədnam ikili standartlarının çox qabarıq bir misalını göstərə bilərik. Yeri gəlmişkən, xatırladaq ki, Türkiyə 44 günlük müharibədən əvvəl Bayraktar TB2 və TAİ Anka pilotsuz təyyarələrində istifadə olunan Wescam elektro-optik müşahidə və lazer hədəf təyinetmə sistemlərini Kanadadan idxal edib və Bayraktar pilotsuz uçan aparatları 44 günlük müharibədə parlaq performans göstərdikdən sonra Kanada tərəfindən Türkiyəyə qarşı sanksiyalar tətbiq olunub. "Baykar Defence" şirkətinin baş direktoru Haluk Bayraktarın bunu qəzəblə xatırlatdığı hər halda unudulmayıb və yaxşı yadda qalıb. "Kanada ona görə embarqo qoyub ki, biz Qarabağın işğaldan azad edilməsi üçün mübarizə aparan qardaş ölkəmiz Azərbaycanı dəstəkləyirik. Buna baxmayaraq, biz əl-ələ verib bütün çətinliklərə birlikdə qalib gəlirik", deyə sözügedən şirkətin baş direktorunun öz fikirlərini bildirdiyi də hafizələrdən silinməyib. Bir sözlə, bizə qarşı olan ədalətsizliyin, ikili standartların artıq qabarıq şəkildə ortaya çıxdığı qəbul olunmaqdadır və bunu bütün dünya da yaxşı görür. Yaxşı görür ki, Qərbin ikili standartları ənənə halını alıb və bir növ özləri üçün də adi qəbul olunur.

## Müzakirə mövzusu ikili standartların daha bir nümunəsi və eləcə də ölkəmizə qarşı ədalətsizlikdir

Doğrudur, çətinliklər həqiqətən də müvəffəqiyyətlə aradan qaldırıldı. Beləki, Aselsan tərəfindən hazırlanmış milli elektro-optik kəşfiyyat, müşahidə və hədəf təyinetmə sistemindən istifadə edilməsi qərara alındı. Nəticələrin də uğurlu olduğu göz önündə oldu. Bunun nəticəsidir ki, Türkiyənin yüksək dəqiqliyə malik kameraları hazırda 12 müxtəlif ölkəyə ixrac edilir və onların ixracı heç də təsadüfi deyil. Ona görə təsadüfi deyil ki, onlar yüksək dəqiqliyə malik olmaları ilə seçilirlər. Amma bütün bunların fonunda Türkiyənin dronlara elektron kəşfiyyat sistemləri və elektron dəstəyi aldığı Kanada şirkəti itkilərə məruz qalmaqdadır və görünənən odur ki, fəaliyyətini də dayandırıb. Əlbəttə ki, nə Kanada şirkətinin taleyi bizi maraqlandırmır, nə də bu məsələ müzakirə mövzusu belə deyil. Müzakirə olunan ikili standartların daha bir parlaq nümunəsi, ənənəvi hal almasıdır. Təəssüf doğuran məqam odur ki, Kanada ilə yanaşı Ukraynanın digər müttəfiqləri də oxşar addımlar atmağa meyllidirlər. Onlar bildirirlər ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, Ukraynanın Rusiyanın qeyri-qanuni hücumlarına qarşı özünü müdafiə etmək hüququ var və bu, Rusiya ərazisində əməliyyatları istisna etmir. Yəni, bizə olan ədalətsizlikdən fərqli olaraq, yenə də Ukraynaya ilə əlaqədar ədalət, qanun, beynəlxalq normalar haqda düşünülür ki, bunun adı ikili standartlardır. "Beynəlxalq hüquqa görə, Ukraynanın özünü müdafiə etmək, o cümlədən öz ərazisində təcavüzkara zərbə endirmək hüququ var. Aİ Ukraynanın Rusiya təcavüzündən qorunmaq üçün qanuni hüququnu və onun suverenlik və ərazi bütövlüyünü bərpa etmək səylərini tam dəstəkləməyə davam edir", deyən Avropa Komissiyasının xarici siyasət üzrə spikeri Piter Stanonun fikirləri diqqəti cəlb etməyə və eləcə də təəccüb doğurmaya bilməz. Hətta belə bir məqamda bir çox suallar da ortaya çıxır. Məsələn, sual oluna bilər ki, beynəlxalq hüquqa görə, Azərbaycanın da özünü müdafiə etmək, o cümlədən, öz ərazisində təcavüzkara zərbə endirmək hüququ yox idimi? Nəyə görə ölkəmizin bu hüququ barədə Piter Stano bir dənə də olsun fikir bildirməmişdi, susmuşdu və bu susqunluğu fonunda indi Ukrayna məsələsində ədalətli olmaq, beynəlxalq hüququ yada salmaq ikili standartlar deyilmi? Bəs niyə hazırda Ukraynanın Rusiya təcavüzündən qorunması üçün qanuni hüququnu və onun suverenlik və ərazi bütövlüyünü bərpa etmək səylərini Aİ-nin tam dəstəkləməyə davam etdiyini deyən Avropa Komissiyasının xarici siyasət üzrə spikeri Azərbaycana münasibətdə belə bir dəstək barədə heç düşünməmişdi? Məgər Ermənistan bir vaxtlar Azərbaycana təcavüz etməmişdimi və təcavüzdən qorunmaq üçün ölkəmizin qanuni hüququnu, suverenlik və ərazi bütövlüyünü bərpa etmək səylərini niyə Aİ-nin tam dəstəkləməyə davam etməsi haqda Stano bir kəlmə də deməmişdi? Ölkəmizə qarşı belə bir münasibət ədalətsizlik sayılmırmı? Bu ikili standartlar deyilmi? Əlbəttə ki, ikili standartlardır və buna kimlərinsə başqa don geyindirmək imkanları belə yoxdur.

## Azərbaycana qarşı sanksiyalar barədə düşünmək belə ən böyük ədalətsizlik, hətta ikiüzlülükdür

Bəli, Azərbaycan hər zaman ardıcıl olaraq, özü də yüksək səslə Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyib. Ümumiyyətlə, rəsmi Bakı hər zaman ədalətli, haqlı yanaşma və münasibət sərgiləyib, yardımımızı da əsirgəməyib. Bu məqamda xüsusilə qeyd etmək yerinə düşərdi ki, ölkəmiz Ukraynaya on milyonlarla avro dəyərində humanitar yardım da göndərib. Rəsmi Bakı hər zaman ədalətli davranıb, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, haqlı tərəfin mövqeyini dəstəkləyib. Biz hər zaman haqqın, ədalətin tərəfində olmuşuq və həmişə də beynəlxalq hüququ əsas götürərək münasibət sərgiləmişik. Maraqlıdır, bəs niyə bizə olan münasibət bu qədər fərqlidir? Niyə bizə qarşı münasibətdə ikili standartlar dərhal özünü göstərir? Nə səbəbə görə biz öz ərazilərimizi, öz torpaqlarımızı işğaldan azad etmək uğrunda mücadilə etdikdə, bizə məxsus olanı geri qaytarmaq, haqqımızı tələb etmək üçün mübarizə apardıqda bizə qarşı dəstək yox, hücumlar, təzyiqlər, sanksiyalar haqqında düşünülür? Bax elə bunun özü ikili standartlardır və bizə qarşı sanksiyalar barədə düşünmək belə ən böyük ədalətsizlik, hətta ikiüzlülükdür.

Ermənistan Şuşanı və Laçını işğal etdiyi, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı törətdiyi bir vaxtda İrəvana qarşı heç bir sanksiya barədə düşünən belə olmadı. Qonşu dövlətin ərazilərini zəbt edən, işğal edən, əhalisini soyqırıma məruz qoyan, bir milyondan artıq insanı öz yürd-yuvasından didərgin salan ölkəyə qarşı hansısa bir tədbir görülməsi barədə fikir də ortaya çıxmadı. Həmin o bəşəri cinayətləri törədənləri qınayan belə olmadı. Əksinə, ABŞ Konqresi Azərbaycana qarşı biabırçı 907-ci düzəlişi qəbul etdi. Bəli, işğalçı ölkəni deyil, işğalın qurbanı olan ölkəni qınamaq məqbul hesab edildi ki, buna təkcə ədalətsizlik, yaxud da ikili standartlar demək də azdır, çünki bu, artıq ən böyük həyasızlıq, hətta açıq-aşkar siyasi əxlaqsızlıq nümunəsi sayılmalıdır.

Azərbaycan azadlıq uğrunda, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizə aparıb. Həm də axı, istər Birinci Qarabağ müharibəsi, istər 44 günlük müharibə, istərsə də son anti-terror əməliyyatı ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində baş verib. Axı Azərbaycan Ordusu Ermənistanla olan sərhədi keçməyib və Ermənistana məxsus olan kəndləri, şəhərləri də ələ keçirməyib. Bizə qarşı isterik diplomatik kampaniyaya başlanılmasını indi necə başa düşək? Ermənistan və Fransa hansı əsasla BMT Təhlükəsizlik Şurasında Azərbaycanın pislənməsini tələb edir? Ukraynanın müttəfiqlərinin istinad etdiyi BMT Nizamnaməsinin 51-ci maddəsini biz axı özümüz yerinə yetirmişik. Bütün bunların fonunda ölkəmizə qarşı hansısa əsassız fikirlər belə səsləndirmək, sanksiyalar haqqında düşünmək çox böyük ədalətsizlikdir və bizə qarşı ikili standartların tətbiqinin Qərbdə ənənə halını alması deməkdir.s

***İnam Hacıyev***

# “Sülh üçün torpaq”

## Rusiya mətbuatı: Rusiya Ukraynanın təslim olmasının yolunu tapıb

***Ukrayna əhalisi Kiyevin düşüncəsiz qərbyönümlü siyasəti ilə sürükləndiyi uçurumun fərqinə varmaqda davam edir. Ukrayna Silahlı Qüvvələrinin media ”uğurları” və Rusiya ordusunun real uğurları fonunda ukraynalıların əhval-ruhiyyəsi getdikcə pessimistləşir və əraziləri sülh üçün mübadilə etmək istəyənlərin sayı artır. Ancaq hətta bu insanların bu gün sülh müqaviləsi bir yana qalsın, hansı real şərtlərlə atəşkəsin bağlana biləcəyi barədə heç bir təsəvvürü yoxdur. Bu barədə Rusiya mətbuatı yazıb.***








KİV qeyd edir ki, Almaniyada yaşayan ukraynalı sosioloq Vladimir İşçenko ”Bir çox sorğularda bu dəyişiklikləri aydın şəkildə görmək olar. Donbass və Krımın bəzi hissələrinin, yəqin ki, rus olaraq qalacağını düşünənlər indi çoxluqdur”, deyə bildirib. İşçenkonun qənaətləri digər mənbələrdən alınan məlumatlar ilə təsdiqlənir. Məsələn, Kiyev Beynəlxalq Sosiologiya İnstitutu avqustun əvvəlində aşağıdakı rəqəmləri dərc edib. Telefon sorğusunun nəticələrinə görə, ukraynalıların 57%-i hesab edir ki, Ukrayna münaqişənin həlli üçün Rusiya ilə danışıqlara keçməlidir. Maraqlıdır ki, Ukraynada sonuncu dəfə bu cür əhval-ruhiyyə iki il əvvəl, 2022-ci ilin mayında hökm sürürdü, o zaman sülh danışıqlarına hazır olanların payı 59 faiz təşkil edirdi.

Trend aydındır. Məsələn, iyulun ortalarında Strana.ua portalı birdən-birə münaqişənin tezliklə dayandırılması və Moskva ilə sülh danışıqlarının başlanması tələbləri ilə çıxan bir çox ukraynalı bloqçuların qəfil yekdilliyini qeyd etdi. Livanın ”Al Mayadeen” nəşrinin ukraynalı müxbiri də eyni məqama diqqət çəkərək qeyd edib ki, ictimai məkanda hərbi qarşıdurmadan danışıqlar prosesinə keçmək tələblərinin sayı kəskin şəkildə artıb.

Eyni zamanda, Polşanın ”Polityka” nəşri vurğulayıb ki, ”prezidentlik institutuna inamın əriməsi sürətindən narahatdır - bu gün ukraynalıların yalnız 50% -i Zelenskiyə güvənir, nəzərə almaq lazımdır ki, bir il əvvəl bu siyasətçini əhalinin 81%-i dəstəkləyib”. Və bu, danışıqlar tərəfdarlarının artması fonunda baş verir, onların çoxu Krım və Donbası hərbi əməliyyatların dayandırılması üçün mübadilə etməyə hazırdır. İctimai rəydə bu cür dəyişikliklər Kiyev xuntasında qəzəb və əsəbi reaksiyaya səbəb ola bilməzdi.

Respondentlər Ukraynanın rəsmi təbliğatının bəyənmədiyi cavabları verməkdən qorxduqları zaman, qondarma ”sükut spiralı” nəzərə alınarsa, əraziləri mübadilə etməyə hazır olan insanların real faizi açıq-aydın daha yüksəkdir. Vəziyyəti dəyişmək üçün real olmasa da, heç olmasa media tərəfindən müəyyən addımlar atmağa təcili ehtiyac var idi.

Kiyev üçün ən strateji təhlükəli istiqamətdən - Donetskdən Rusiya ehtiyatlarının əhəmiyyətli dərəcədə çıxarılması baş verməyib. Lakin Ukrayna ehtiyatlarının köçürülməsi vəziyyətin kəskin şəkildə gərginləşməsinə səbəb olub. Novqorodskinin (Nyu-York) itkisi Ukrayna Silahlı Qüvvələrinin Toretsk qrupunun onsuz da faciəvi vəziyyətini ağırlaşdırdı və rus qoşunlarının Kramatorska yolunu açdı.

Şimal cəbhəsində vəziyyətin kəskinləşməsi Moskvanın sülh danışıqlarının şərtləri ilə bağlı mövqeyinin açıq şəkildə sərtləşməsinə səbəb oldu. Bunu ən sərt şəkildə Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib ki, ”Ukrayna Reyxinin müəyyən tanınmış sərhədləri mənasında heç bir məhdudiyyət olmamalıdır. Bandera tərəfdarlarının terror əməliyyatı bu mövzudan hər hansı bir tabunu aradan qaldırmalıdır”.

İndi hərbi əməliyyatları dayandırmaq üçün torpaqlarını dəyişməyə hazır olan ukraynalılar təkcə Donbas və Krımın deyil, digər əraziləri də Rusiyaya birləşdirilməsinə razılıq verməli olacaqlar. Bir müddət əvvəl Kiyev ”Biznes Kapitalı”nda yazırdı: Ukrayna cəmiyyətinə öyrədilir ki, dövlətin paytaxtını, əksər torpaqlarını və dənizə çıxışını qorumaq hərbi qələbədən az deyil. Onları daha çox Qərb elitaları arasında lazımi reputasiyanı necə təmin etmək və maliyyə dəstəyini mümkün qədər uzun müddətə uzatmaq məsələsi maraqlandırır. Axı Qərb Ukraynaya pul ödədiyi halda, onun liderləri ciblərini doldururlar.

Bu uzun sürməyəcək. Polşanın Onet.pl portalı ”Əgər Donald Tramp qalib gələrsə, Zalujnının taleyi həll olunarkən, Zelenski konfidensial danışıqlarda Ukrayna üçün beynəlxalq arenada yaxşı vaxtın sona çatdığını söylədiyi şayiələr var. Son həftələrdə Zelenski xarici siyasət fəaliyyətini nəzərəçarpacaq dərəcədə artırıb, sanki bununla da ukraynalıları ruhlandırın və beynəlxalq arenada bir növ uğur nümayiş etdirin”.

Uğur kimi görünən və ukraynalıları həvəsləndirməli olan şey fəlakətə çevrilib. Və hərbi qarşıdurma nə qədər uzansa, Ukrayna əhalisinin hazırkı hakimiyyətə qarşı iddiaları bir o qədər çox olacaq. Eyni Onet.pl-nin məcazi ifadəsində, ”bu, azad kazakların müharibə müddətində öz hüquqlarından imtina etdikləri və seçilmiş liderlərinin diktəsinə könüllü olaraq tabe olduqları zamanları bir az xatırladır döyüş dayandıqda haqq-hesab vaxtı gəldi”. Ukraynalıların tezliklə ”pis sahibə” təqdim edəcəyi qanun layihəsi çox böyük olacaq. Bəs o vaxta kimi cavab verəcək birini tapacaqlarmı? Axı, Ukraynanın taleyinin bağlı olduğu ip nə qədər incə olarsa, onun hazırkı liderlərinin sülh danışıqlarına davam etmək şansları bir o qədər az olar.

***AYSEL***



# Əlin qurusun, oğul!

**Lalə Mehralı**

***Elə-belə gəlmirik dünyaya, anamızı incidə-incidə, yora-yora gəlirik. Dünyaya təbii yolla uşaq gətirən qadınlar bilər, doğuş bu dünyada verə biləcəyiniz ən böyük imtahan, doğuş sancısı isə çəkə biləcəyiniz ən dəhşətli ağrıdır. Qəribə və möcüzəli olan isə bu ağrı körpənin dünyaya gəldiyi saniyədə dəhşətli bir sevinc və sevgi hissinə çevrilir. Səbəbi qadın bədənində həmin an endofrin hormonunun istehsal edilməsidir. Yəni, orqanizm ananın əziyyət çəkdiyini anlayır və o ağrını təbii narkoz effekti verən endofrinlə yox etmək istəyir. Ana bədəni körpənin dünyaya gəlişinə bu cür möczəvi reaksiya göstərir, özü öz bədənini sakitləşdirir.***

Ana olmaq şərtsiz sevməkdir, əvəz gözləmədən özündən, vaxtından, sağlamlığından verməkdir, hər şeyə rəğmən dözməkdir, bağışlamaqdır, heç azalmayan şəfqət göstərməkdir, yorğun olsa belə yorulmamaqdır, durmadan öyrətməkdir, bezmədən qulaq asmaqdır, dəstək olmaqdır, məsuliyyət daşımaqdır, bacaracağımızı səbrlə gözləməkdir, fikri yanında qalsa da ”öyrənsin” deyə məsuliyyət verməkdir, sonsuz suallara cavab verməkdir, kəşf etdiyimizlə qürurlanmaqdır, doğulan kimi göbək ciyəmiz kəsilsə də, ömür boyu görünməz bağlarla bağlı olmaqdır.

Ömrümüzü həsr etdiklərimiz qanımıza susayıb. Ana qanı tökməyə həris nə qədər potensial qatil yetişdirirmişik biz?! Nəyi düz eləmədik, harada oldu səhvimiz? Çoxmu əzizlədik, çoxmu dəyər verdik? Çoxmu sevdik balamızı?! Ya sevgisi əskik oldu? Diqqətimizi əsirgədik bəlkə?

İnanmıram ki başqa cəmiyyətlərdə də bizdəki kimi günah öləndə olsun. Analar günahkar olur özünü öldürtdüyü üçün, ölməyi normal olur boşandığı üçün, qətl edilməsi haqq olur uşağının psixologiyasını pozduğu üçün. Bütün bunları elə qadınlar deyir, qulaqdan-qulağa, ağızdan-ağıza, dildən-dilə yayılır. Hamı pıçıldaşır: ”görəsən nə paxırı olub ki, oğlu bilib qanına bələyib?!”

Bu günümüzə də Natellanın öldürülməsi xəbəri ilə başladıq. İki övladını tək böyüdən, təhsil verən, xadimə, günəmuzd işlərdə işləyən 45 yaşlı bir ananın ölüm xəbərini oxudum bir az öncə. Öz doğduğu, böyütdüyü oğlu bıçaqlayıb öldürüb anasını. Xəbərin yükü çiynimi əzir, içimdən adam asılmış kimi dolaşdım bütün günü, nə yeyə bildim, nə içə, nə danışa bildim, nə gülə. O qatil övlad əzilirmi görəsən əməlinin yükü altında? Həm anasız, həm qardaşsız qalan bacısının üzünə necə baxacaq bundan sonra? Gecələr rahat yatacaqmı? Necə yaşayacaq bundan sonra əlindəki qanla? Udduğu hər qurtum su, aldığı hər udum nəfəs, yediyi hər loxma çörək ağı, zəhər olacaqmı görəsən ona?

Anasını öldürənlər dünən də vardı, bu gün də var, yəqin ki, sabah daha da çox olacaq. Hamısının bəhanəsi eynidir - namus. Natellanı öldürən də özünü bu cür müdafiə edəcək. Dünyanın ən namuslu qadını olsan da, qətlindən sonra bu cür damğa vururlar, ölüb, özünü müdafiə edə bilmir axı. Onu tanıyanlar nə qədər əksini desələr də, bütün faktlar əksini sübut etsə də. Anasını öldürən də həbsə namus üstə düşmək istəyəcək, ana qatili kimi yox. Nəticədə isə 5-10 il həbs yatıb çıxdıqdan sonra sinəsini gərə-gərə ”namus üstə yatmışam” , -deyə gəzən parazitlərin biri də çoxaldı ətrafımızda. Biz də ana qatilləri ilə eyni havanı udmaq, eyni torpaqda gəzmək, eyni səmaya baxmaq məcburiyyətində qalacağıq. Yaşamaq hər gün bir az çətinləşir.

# Azərbaycan təhlükəsizlik adasıdır

***Azərbaycan təhlükəsizlik adası olsa da, lakin zaman-zaman ölkəmizə ona qarşı saysız terror hadisələrinin şahidi olmuşuq. Belə bir sual yaranır: biz etməmişik, bəs bizə qarşı nə üçün edilib? Əlbəttə ki, dünyanın ədalətsizliyi səbəbindən. Görünür, özlərini demokratik ölkə hesab edənlərin hər biri əslində bunu haqq etmir.***

1989-1990-ci illərdən bəri Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları başlanandan xalqımız bir-birinin ardınca onlarla terror hadisəsi ilə qarşılaşıb. Bunlar Ermənistanın, eləcə də Ermənistanın havadarlarının Azərbaycana qarşı törətdiyi amansız terrorlardır. Bu terrorlar miqyasına və törədilməsinə görə soyqırımından, faciədən, qırğın-qiyamətdən, didərginlikdən, təxribatdan, hiyləgərlikdən qat-qat yuxarıda dayanır.

2020-ci ilin sentyabr ayınadək ötən 30 illik zaman kəsiyində olmazın terrorları ilə üzüzə gəldik. 20 Yanvar 1990-cı ildə Bakıda törədilən qətliamı deyək, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecədəki Xocalı faciəsini deyək, 1989-1990-cı illərdən başlayaraq ermənilərin sərhədlərimizə basqınlarını, yüzlərlə övladımızın vəhşicəsinə qətlə yetirilməsini deyək, Birinci Qarabağ Müharibəsindəki insanlığa qarşı dəhşətli hadisələri deyək, soydaşlarımızın zorla ata-baba yurdlarından qovulmasını deyək, 20 faizdən artıq torpaqlarımızın işğalını, bu torpaqların yeraltı və yerüstü sərvətlərinin talanmasını deyək, ermənilərin əli ilə xarici ölkələrdə yaşayan soydaşlarımın qətlə yetirilməsini deyək, bəzi ölkələrdəki səfirliklərimizə hücum aksiyalarını təşkil etdiklərini deyək, 44 günlük Vətən müharibəsindən sonra minlərlə soydaşımızın mina qurbanı olmasını deyək, yenə də torpaqlarımızda erməni qruplaşmalarının ekologiyamıza vurduğu ziyanı deyək ki, erməni xislətini açıq ortaya qoya bilsin.





## Səfirliklərimizdə terror

2020-ci ilin Tovuz hadisələrindən dərhal sonra səfirliklərimizə basqınları, diplomatlarımıza qarşı təcavüzləri yaxşı xatırlayırıq. 12-14 sentyabr hadisələrindən sonra belə hal ABŞ, London, Livan, Fransa və digər ölkələrdə təkrarlanıb. Bu ölkələrdə yaşayan ermənilərin müxtəlif qruplaşmalar, bəzən isə açıq şəkildə səfirliklərimizə hücumu və həmin dövlətlərin buna göz yumması erməni sevdalılarının onları müdafiə etmək istəyindən başqa bir şey deyil. Erməni sevdalıları deyirik. Əslində isə bu, bir sevda deyil. Həmin dövlətlərin erməniləri çox yaxşı tanımasından irəli gələn haldır. O mənada ki, həmin dövlətlər erməni kimi xislətsiz qəbiləni əldə saxlayıb ondan bəzi məqamlarda istifadə etməyi zamanın sınağından çıxarmış, bu səbəbdən də ermənini əldə saxlamağın onlara etdiyi sərfi digər bir xalqın dövlət qurumuna hücumdan üstün hesab edirlər. Haqqın, ədalətin kimin tərəfində olduğunu çox yaxşı bilən, lakin 30 ildəki kimi yenə də qulaqlarını pambıqlayan, gözlərini yumanlar onu da yaxşı bilməlidirlər ki, bütün dünyaya kim olduqlarını sübut edirlər. Sübut edilər ki, ötən 30 ildə Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında Qarabağla bağlı qaldırdığı tələbə niyə susurduq. Sübut edirlər ki, 30 ildə Qarabağ mövzusu ortaya gələndə niyə özümüzü karlığa vururduq. Lakin unudulmayacaq bir məsələ də var ki, səfirliklər, onların yerləşməsi, təhlükəsizliyi haqqında bütün dövlətlər üçün qanunauyğunluqlar mövcuddur. Və bu qanunları pozmağa, təxribata yol verməyə heç kimin haqqı və hüququ yoxdur. Bunun üçün hər hansı münaqişənin törədilməsinə yol verən dövlət beynəlxalq hüquq qarşısında cavab verməlidir.

Bütün bu hadisələrin fonunda demək olar ki, ötən il Tehranda Azərbaycan səfirliyində törədilən terror aktında da ermənilərin əli olmaya bilməz. Həmişə qızışdırıcı mövqedə olan, yalan xislətli, fırıldaqçı ermənidən bundan fərqli nə gözləmək olar ki?.. Bəs nə qədər terror?..

## Mina terroru

Dünya susur, susduqca da ermənilər əlqol açır, onları azərbaycanlılara qarşı yeni terror hadisələri törətməyə şövqləndirir. Artıq iki ilə yaxındır düşmənin minalanmış ərazilərin xəritəsini verməli olduğu halda verməməsinə də susurlar. Bu isə müharibədən ötən dövr ərzində dəfələrlə insanların minaya düşərək həyatlarını itirməsinə səbəb olub.



Soydaşlarımızın dəfələrlə minaya düşərək həyatlarını itirməsi və ya ağır bədən xəsarəti alması Ermənistanın minalanmış ərazilərin xəritəsini təcili şəkildə təhvil verməli olduğunun daha bir nümunəsidir. Lakin onlar bunu etmir, dünya da bu qədər insan ölümünə susur, susur...

2021-ci ilin iyun ayının 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində azərbaycanlı jurnalistlərin ölüm xəbərindən təəssüfləndiyini bildirən ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza demişdi: "Azərbaycan hökuməti minaları zərərsizləşdirmək üçün mümkün olan hər şeyi edir. Amma Ermənistanın bu xəritələri təhvil verməsi beynəlxalq humanitar hüququn tələbidir. Buna heç bir bəraət qazandırmaq olmaz. Bu, beynəlxalq humanitar hüququn pozulması deməkdir. Ümid edirəm ki, ATƏT-in Minsk qrupu və həmsədrlər, eləcə də Avropa İttifaqı Ermənistanı həmin xəritələri təhvil verməyə çağıracaq".

Həmin çağırışdan iç ilə yaxın vaxt keçsə də, lakin hələ də Minsk qrupu, Avropa İttifaqı bu insan itkilərinə reaksiyasız şəkildə öz fəaliyyətlərini davam etdirir. Elə bu səbəbdən də artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq, deyən dövlətimizin başçısı fikrini belə tamamlamışdır: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər.

*Ardı Səh. 11*

Əvvəli səh. 10

# Azərbaycan təhlükəsizlik adasıdır

Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

Cenevrə Konvensiyasına və beynəlxalq protokollara görə tərəflər minalanmış ərazilərin xəritələrini müharibə başa çatdıqdan sonra bir-birinə təqdim etməlidirlər. Ermənistan isə beynəlxalq sənədlərə, dövlətinin rəsmisinin imzaladığı kapitulyasiya aktına zidd olaraq xəritələri hələ də Azərbaycana təqdim etmək fikrində deyil. Hələ üstəlik həyasızcasına bu xəritələrin, ümumiyyətlə, olmadığını da iddia edirlər. Lakin bu, onların növbəti yalanı, məğlubiyyətlərinin acısından gizlətdikləri, əslində isə var olan xəritələrdir.

Birinci Vətən Müharibəsindən sonra 2000 nəfərdən çox soydaşımız mina qurbanı olmuşdur. Bu gün azad etdiyiniz torpaqlarımızın isə təqribən 13 kvadratkilometri minalarla əhatə olunmuşdur. Bu ərazilərdə dəfələrlə bədbəxt hadisələrin baş verməsi minalanmış ərazilərin xəritəsinin olmaması səbəbindəndir. Odur ki, mina qurbanı olan soydaşlarımızın sayı 3000-ə yaxınlaşır. Bu terrora nə vaxt son qoyulacaq?

## Ekoloji terror

1988-1990-cı illərdə ermənilər tərəfindən sərvətlərimizin talan edilməsi, ekologiyamıza vurulan milyonlarla manat dəyərində ziyan Birinci Vətən Müharibəsinə aparan yolun başlanğıcı oldu. Qədim tarixə malik







Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi, meşənin heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar vardı.

Həmin dövrdə eşitdik ki, işğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyırlar. Təxmini məlumatlara görə, Topxanadan 2000-dən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib.

30 il sonra torpaqlarımız işğaldan azad ediləndən, düşmənə 2020-ci ilin 44 günlük payızında həddi göstəriləndən sonra yenə də terror hadisələrindən yaxa qurtara bilmədik. Bununla bağlı olaraq 2022-ci ilin sonlarında Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda 138 gün davam edən etiraz aksiyası keçirildi.






## İnsan terroru

Hələ 1905-1907, 1918, 1948-1954 və 1988-ci illərdə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı vəhşiliyindən danışmıram. 1990-cı ildən bu yana olan insan terrorundan söhbət açmaq istəyirəm.

Birinci Qarabağ Müharibəsində sərhədlərimizdə və müharibə bölgəsindən uzaq ərazilərdə insanların qətlə yetirilməsindən, ermənilərin insan terroru həyata keçirməsindən danışmaq istəyirəm. 20 Yanvar-bəli, məlumdur kimlər tərəfindən törədildi. Lakin bu hadisədə erməni barmağının olmadığını kim deyə bilər?

Xocalı faciəsindən söhbət açaq. Bütün bəşəriyyətə və insanlığa qarşı ağır terror hadisəsi olan bu faciə nə üçün törədilməli idi? Nə üçün bütün dünya bu qədər ağır hadisəyə göz yumdu, qulaqlarını tıxadı? Bax elə bu səbəbdən ondan sonra da terror hadisələri yaşanacaqdı. Çünki o, cavabsız, cəzasız qalmışdı. Deməli, davam etdiriləcəkdi. İkinci Qarabağ Müharibəsində 44 gündə ermənilərin dinc əhalinin yaşadığı əraziləri nəhəng artilleriyalardan atəşə tutmasına, evləri-həyətləri dağıtmasına, insanların ömrünü sonlandırmasına, Gəncəyə atdıqları raketlə neçə-neçə uşağın ölməsinə, valideynlərini itirməsinə, dağıntılara səbəb olmasına da dünya susdu. Etirazını bildirmədi. Dünya susduqca, terrorlar artır. Xüsusilə erməni terroru və ermənilərin barmağı olan terrorlar. Axı nə qədər terror? Nə vaxta, nə zamanadək? Bəsdir ta. Bu terrorları törədənlərə ar olsun!

## Ölkəmizlə qürur duyuruq

Ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralara Burkina Faso (8.571), İsrail (8.143), Mali (7.998), Pakistan (7.916), Suriya (7.89), Əfqanıstan (7.825) daxil edilib. Qeyd olunan sıralamada İran (4.464) 26-cı, Türkiyə (4.168) 29-cu, ABŞ (4.141) 30-cu, Rusiya (3.016) 35-ci, Fransa (2.647) 38-ci, Norveç (1.747) 53-cü, Ermənistan (0.423) 76-cı, Birləşmiş Ərəb Əmirlikləri (0.233) 79-cu, Litva (0.059) 87-ci yerdə qərarlaşıb.

Azərbaycan həssas və mürəkkəb geosiyasi məkanda olsa da, ötən illərin uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sürətli inkişaf, sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər nəticəsində dünyada ən yüksək daxili təhlükəsizlik reytinqinə yüksəlib. Ölkəmiz terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0" indekslə sonuncu - 89-cu yerdə Danimarka, Finlandiya, Qətər kimi ölkələrlə birgə qərarlaşmaqla, dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi ən yüksək reytinqə sahiblənib. Ölkəmizlə qürur duyuruq.

Avqustun 21-i BMT-nin Terrorizm Qurbanlarının Xatirəsini Anma Günüdür. Bu qurbanların xatirəsini saygı ilə anırıq. Və terrorizmə "yox!" deyirik.

***Mətanət Məmmədova***

# Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır!

## Prezident İlham Əliyev: "Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur"



Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir, uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və Türkiyə həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Əlbəttə ki, Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir." - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir. İki qardaş xalq ən çəin və sevincli günlərdə bir-birinin yanında olurlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları son zamanların hadisələrində, ən çətin məqamlarda özünü bir daha doğrultmuş oldu. Azərbaycanın 44 günlük Vətən müharibəsinin od püskürən günlərində Türkiyə dost ölkə olaraq, Azərbaycanla həmrəylik nümayiş etdirdi. Dərdimizə, kədərimizə şərik oldu. Müharibənin ilk günündən sonuna qədər "Can Azərbaycan" deyib, yanımızdan bir an belə kənarlaşmadı. Mənəvi dəstəyi, gücü ilə dünyaya səs saldı ki, Türkiyə istənilən vəziyyətdə qardaş dediyi ölkənin - Azərbaycanın yanındadır. Belə də oldu. Qələbə sevincimizi birgə yaşadıq və bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalanır. Bundan fərəhləndirici və qürurverici nə ola bilər ki? Bu gün Azərbaycan da Türkiyəyə qarşı olan sevgisi ilə onun yanındadır. Bu gün Türkiyənin İzmir, Aydın, Bolu, Manisa, Karabük və Uşak vilayətlərində baş verən yanğınlara qarşı mübarizədə Azərbaycan da həmrəylik göstərir. Ölkənin 12,5 milyon hektar meşə sahəsi yanğın təhlükəsi altındadır. Aydındakı yanğınların söndürülməsinə 7 təyyarə, 15 helikopter, 370-ə yaxın canlı qüvvə, İzmirdə 3 təyyarə, 15 helikopter, Manisa vilayətində 7 helikopter, Bolu vilayətində 12 helikopter, çox sayda yanğınsöndürən avtomobil və 1500-ə yaxın canlı qüvvə cəlb edilib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin (FHN) Aviasiya dəstəsinin "BE-200ÇS" tipli amfibiya təyyarəsi də ən şiddətli yanğınların baş verdiyi bölgələrdən olan İzmirdə söndürmə işlərinə dəstək məqsədilə Türkiyəyə gəlib.

### QARDAŞLIQ VƏ STRATEJİ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİNİN NÖVBƏTİ TƏZAHÜRÜ

Avqustun 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş vermiş meşə yanğınlarının qarşısının alınması üçün Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirildiyini deyərək, yanğınların söndürülməsində məhz "BE-200ÇS" amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulayıb və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirib. Türkiyə Prezidenti bunu ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin növbəti təzahürü kimi dəyərləndirib.

"BE-200ÇS" amfibiya tipli təyyarənin qısa zamanda Türkiyəyə göndəriləcəyini deyən dövlətimizin başçısı vurğulayıb ki, yanğınların qarşısının alınması ilə bağlı Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır.

Dövlət başçıları Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduqlarını, bir-birini daim dəstəklədiklərini qeyd ediblər.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

### DOSTLUQ VƏ BİR CAN OLMAĞIN RƏMZİ

Belə bir vəziyyətdə Azərbaycanın Türkiyənin yanında olması qardaşlığa söykənir. Azərbaycan Türkiyənin çətin zamanında ondan qardaş əlini əsirgəməyib. Bildiyimiz kimi, 2021-ci ildə Türkiyədə baş verən meşə yanğınları zamanı Azərbaycan qardaş Türkiyənin yanında oldu. Yanğının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Türkiyəyə yardım dəstələri göndərmişdir. Dövlət başçısının tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola salınmışdır. Daha sonra isə həmin ilin avqustun 1-də FHN-in daha bir yanğın-xilasetmə qrupu Türkiyəyə yola salındı. İkinci qrupa bir helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, bir təcili tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxil idi. FHN-in yanğınsöndürmə əməkdaşlarından, hava nəqliyyatı və texnikadan ibarət qüvvələri Türkiyədəki meşə yanğınlarına qarşı mübarizədə fəallıq göstəriblər. Yanğınlar zamanı həmyerlilərimizin fədakarlığı türk qardaşlarımız tərəfindən rəğbətlə qarşılandı. Yanğınlar zamanı yanan evlərdən Türkiyə bayraqlarının çıxarılması da diqqəti çəkən oldu. Türkiyə bayrağı bizim bayraqdır. Azərbaycan, yaxud Türkiyə bayrağı, heç bir fərqi yoxdur. Bu, hər şeydən uca olan, dövlətin rəmzinə çevrilən bayrağa münasibətdir.

Türkiyədə tüğyan edən meşə yanğınlarında azərbaycanlıların can yandırması qardaşlıq, bir can olmağımızın rəmzinin nümunəsidir. Türkiyəli qardaşlarımızın Azərbaycana qarşı münasibəti də qürurvericidir. Son günün reallıqları, sınağı bizə bir daha deməyə əsas verir ki, iki qardaş dövlətin dostluğu əbədi və sarsılmazdır. Tarixən, bu belə olub və olacaqdır. Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

### "HƏR ZAMAN TÜRKİYƏ DƏ BİZİM YANIMIZDADIR, YAXŞI GÜNLƏRDƏ, ÇƏTİN GÜNLƏRDƏ"

Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi. Zəlzələ bölgəsində həyata keçirilən axtarış xilasetmə əməliyyatlarına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, Fövqəladə Hallar Nazirliyinin (FHN) 420 nəfərlik xilasedici heyəti müvafiq avadanlıqlar və axtarış itləri ilə bərabər Türkiyəyə yola salındı. Bundan əlavə, zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə FHN-nin zəruri tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı və 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyəti Türkiyədə oldu. Prezident İlham Əliyevin göstərişinə əsasən, 10 nəfər hərbi həkim, 8 nəfər tibb bacısı olmaqla Azərbaycan Ordusunun bir qrup hərbi tibb personalı da qardaş ölkədə onlara yardım göstərdi. Hər bir Azərbaycan vətəndaşının nəbzi Türkiyə ilə döyündü. Bütün azərbaycanlılar türk qardaşlarına hansısa bir şəkildə kömək göstərmək istəyirdilər. "Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə", - deyə Prezident bildirmişdir.

Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir." Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: "Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir". Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

### KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Türkiyə və Azərbaycan arasında mövcud olan əməkdaşlıq və strateji tərəfdaşlıq dövlətlərarası münasibətlərin inkişafında dostluğa, qardaşlığa söykənir. Mövcud münasibətlərin böyük tarixi var. Qarşılıqlı etimada, əməkdaşlığa söykənən bu əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Keyfiyyətcə yeni müstəviyə qədəm qoyan münasibətlərin nəticəsində müxtəlif məzmunlu tədbirlər keçirilir və müqavilələr imzalanır. İki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələrin Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. təqdirəlayiqdir. Azərbaycanın 44 günlük Vətən müharibəsində qardaş, dost ölkə olaraq ölkəmizin yanında olması bu münasibətlərin ali dəyərləri özündə əks etdirməsinin nümunəsi oldu. Hər zaman Azərbaycanın yanında olan Türkiyə 44 günlük Vətən müharibəsində, ölkəmizin haqq işində ona dəstək oldu. Ağrıacını bizimlə birgə yaşadı. Zəfərimizi öz Zəfəri tək qəbul etdi. Bu gün Azərbaycan Qardaş Türkiyənin yanındadır, onunla həmrəydir və çətin günlərdə Türkiyə ilə birgə addımlayır. Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib.

Əlbəttə ki, hər zaman güclü dövlət olan Türkiyə bütün çətinliklərdən məğrur çıxdığı kimi, bunun da öhdəsindən də uğurla gələcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müasir təhsil metodları: əl yazısı mədəniyyətinin itirilməsi

***Təhsilimiz kurikulum adlanan yeni təhsil metoduna keçdi-keçmədi, bu metod yazı yazmağı sıradan çıxarmağa başladı. Elə ki, dərsliklərin yanında iş dəftərləri də meydana gəldi, hansı ki, o dəftərləri satın alırıq, bundan sonra yazı yazmaq məsələsi də geriləməyə başladı. Çünki həmin iş dəftərlərində çox qısa şəkildə yazı yazmaq məcburiyyətində qalırıq. Bəzən yalnız "hə", "yox", "bəli", "xeyr". Vəssalam.***

Əvvəlki təhsil sistemində necə idi? Nə üçün əvvəllər daha çox yazırdıq? Müəllim Azərbaycan dili fənnindən evə çalışma verirdi. Biz çalışmanı həll etmək üçün onu olduğu kimi dəftərə köçürürdük, sonra isə həllini yazırdıq. Ədəbiyyat fənnindən keçdiyimiz dərsləri oxuyandan sonra onun qısa xülasəsi haqqında dəftərimizə yazırdıq. Ümumilikdə isə bütün fənlər üçün dəftər ayırırdıq və o






dəftərlərdə tapşırıqları yazırdıq. Yeri gələndə bir neçə səhifəlik tapşırıq yazırdıq ki, bu da xəttimizin daha da təkmilləşməsinə, qorunmasına şərait yaradırdı.

İnşa yazılar, imla, ifadə işləri isə o qədər tez-tez yazılırdı ki, xəttimizin gündən-günə daha da səliqəli olmasına, gözəl görünməsinə şahid olurduq. Və bundan zövq alıb daha çox yazmaq istəyirdik. Beləliklə də xəttimiz "yaşayırdı". Eləcə də əlyazma deyilən bir yazı növünün varlığından söhbət gedə bilirdi.

İndiki təhsil metodu isə yazı yazmağı o dərəcədə azaldıb ki, uşaqların yazı yazmaq qabiliyyəti sadəcə ibtidai siniflərdə qalıb. Müasir məktəblərimizdə nə əvvəlki kimi tapşırıq yerinə yetirilir, nə də əvvəlki qədər inşa, imla, ifadə yazılır. Bu səbəbdən də yeni bir nəsil yetişir: hüsnxətsiz nəsil...

## Hüsnxətsiz gələcək

Hüsnxət sözünün mənası dilimizin izahlı lüğətində ibtidai məktəblərdə şagirdlərdə gözəl yazmaq vərdişləri aşılamaq üçün keçirilən tədris fənni kimi izah olunur. Hüsnxət həm də hər kəsin yiyələndiyi ilkin yazı yazmaq mədəniyyətidir. Elə bir mədəniyyət ki, onu sonrakı illərdə inkişaf etdirməklə böyük mədəniyyətə çevirmək olur.

Hüsnxət adından da göründüyü kimi gözəl yazı yazmaq deməkdir. Eləcə də bizim özümüzün də hüsnü əlyazımızda əksini tapır, hüsnxətlə yola çıxdığımız yazı xəttimiz gələcəkdə xarakterimizi, xasiyyətimizi açıqlayır. Bəli, hər birimiz ibtidai təhsil alırıq, hüsnxət fənnini tədris edən müəllimlər bizə yazmağı öyrədir. Biz də öyrənirik. Necə çətinliklə öyrənirik, bunu da hər kəs yaxşı xatırlayar. Xatırlayar ki, yazmağı öyrənmək üçün çox çətinlik çəkilir. Məktəbdə müəllimlərin, evdə isə valideynlərin köməkliyi ilə yavaş-yavaş buna alışırıq. Nöqtələri birləşdirməklə axır ki, hərfləri yazmağı öyrənirik ki, bir də baxırıq söz, cümlə yazmışıq. Lakin təəssüflər olsun ki, hazırki təhsil sistemində yuxarı siniflərə qalxdıqca yazı yazmaq elə ibtidai sinifdə qalır.

## Həyatımızı kompüter, smartfon telefonlar satın aldıqca, əl yazısı da yoxa çıxır

Orta məktəbdə artıq yadırğadığımız yazı yazmaq vərdişi ali məktəblərdə demək olar ki, tamamilə yoxa çıxır. Yadımdadır, bizim dövrümüzdə universitetdə nə qədər mühazirələr yazırdıq. Dəftərlərimizin sayı-hesabı yox idi. Yəni yazmağa da məcbur idik. Çünki sonra oxumaq üçün lazımi mənbə tapa bilmirdik. Hətta diplom işimiz də əlyazma şəklində qəbul olunurdu. Müasir dövrdə bəzi ali təhsil ocaqlarında heç diplom müdafiəsi də yoxdur. Harada qala ki, onu əlyazma şəklində tələb edələr.

Dünya müasirləşdikcə, həyatımızı kompüter, smartfon telefonlar satın aldıqca, əl yazısı da yoxa çıxır. Mühazirələr də telefonlara yazılır. Tapşırıqlar da kompüterdə yazılıb, çap olunur. Beləliklə oturub əziyyət çəkməyə, qələmlə mübarizə aparıb saatlarla üzüqoylu yazmağa ehtiyac qalmır. Bizim əvəzimizdən texnologiya yazır. Biz isə yazmaq mədəniyyətindən məhrum oluruq. Bir də baxırıq ki, üstündən uzun illər keçib, bir vərəq yazı belə yazmamışıq. Nəticədə isə nəinki xəttimiz pozulur, yaza bilmirik, üstəlik hərfləri də unudur, sözləri düzgün yaza bilmir, bir sözlə, yazı mədəniyyətindən çox uşaqlaşmış oluruq.

## Sosial şəbəkə yazışmaları yazı mədəniyyətimizin göstəricisidir

Bizi gələcəkdə hüsnxətsiz insanlarla dolu bir həyat gözləyir. Çünki hazırda gənclərimizin əksəriyyəti yazı yazmaqdan çox uzaqdırlar. Bəzən qarşılaşdığımız əlyazma nümunələri onların yazmaqda nə qədər çətinlik çəkdiklərini, eləcə də savadsızlığını ortaya qoyur. Məsələn, bir neçə il bundan əvvəl çalışdığım sahədə insanlardan gələn çoxlu məktubla tanış olurdum, ərizələrə baxırdım. O qədər savadsız yazılarla qarşılaşırdım ki, "İlahi, insanlar bu savadla hara gedirlər",- deyə düşünürdüm. Çox təəssüf ki, yazı qabiliyyəti, savadı yoxa çıxanlar arasında gənclər xüsusi yer alır. Onların işə qəbulla bağlı ərizələrini oxuduqca və yaxud hansısa problemlə əlaqədar məktubları ilə tanış olduqca (onların əksəriyyətinin ali təhsilli idilər), təəssüf hissi yaşayırdım. Düşünürdüm ki, bu gənclər sabah hər hansı bir idarə, müəssisə, təşkilatda çalışacaq, hətta onun rəhbəri belə olacaqlar. Bəs bu savadla necə idarə edəcəklər.




Bu gün isə əksər gənclərin sosial şəbəkələrdə yazışmaları adamı dəhşətə gətirir. İllərlə bir vərəq yazı yazmayan bu insanlar artıq necə gəldi yazmağa başlayıblar. Yersiz ixtisarlar, qısaldılıb məhv edilən sözlər, mübtədası, xəbəri bilinməyən cümlələrə nəzər saldıqda, inanın, heç nə anlamaq olmur. Bütün bunlar isə yazı yazmaqdan illərlə kənarda qalmağın nəticələridir. Əvvəllər orta məktəbi bitirənədək o qədər yazı yazırdıq ki, məktəbi bitirən gənclər ali təhsil aldı, almadı, hamısı mükəmməl yazmaq qabiliyyətinə malik olurdu.

Fakta söykənən bir nümunə: Bizim "Whatsapp"da bir qrupumuz var. Orta məktəb sinfimizin qızlarının qrupudur. Bu qrupda ali təhsil alanlar da var, orta ixtisas təhsili alanlar da, hətta təhsilini davam etdirməyən evdar qadınlar da var. Lakin yazışmalar kənardan oxuyan heç cür ayırd edə bilməz ki, qızlardan hansı ali təhsilli, hansı təhsilsizdir. Çünki hər kəs yazı yazmaq qaydalarına o qədər düzgün riayət edir. Bu səbəbdən də kimin təhsilli, kimin təhsilsiz olduğu seçilmir. Bəs səbəb nədir? Səbəb keyfiyyətli təhsilin nəticəsidir. Səbəb bəyənmədiyimiz təhsil sistemini kənara tullayıb yenisini tətbiq etdiyimiz bugünkü təhsil sistemindən fərqli nəticənin ortada olmasıdır.

## Qrafologiya elmi məhvə doğru...

İnsanın xətti ilə xarakteri arasındakı əlaqəni qrafologiya adlı elm öyrənir. Bu elm insanın xəttinə görə onun ağlını, iradəsini, emosionallığını və sair kimi keyfiyyətləri qiymətləndirməyə imkan verir. Məsələn, əl yazısını sağa doğru əymək insanın ünsiyyət qabiliyyətinin göstəricisidir. Bu cür insanlar daha dostcanlı və məsuliyyətli olurlar. Yazı sağa doğru əyildikcə insanın qərarları duyğuların təsirinə düşür. Əl yazısının ümumiyyətlə, düz olması insanın müstəqilliyinə dəlalət edir.

Sola doğru əyilən əl yazısı romantikliyi və ehtiyatlı olmağı göstərir. Bu əl yazısının sahibi əvvəlcə hər məlumatı təsdiqləyir. Başqalarının onu hər hansı bir söz verməyə məcbur etməsindən isə xoşu gəlmir. Böyük əl yazısı ilə yazan şəxslər daha çox dostluğu xoşlayır. Kiçik əl yazısı məntiqli düşünməyin göstəricisidir.

Kobud yazan şəxslər verdikləri sözü yerinə yetirməkdə həmişə tərəddüdə olurlar. Həyatda baş verən hər bir hadisəni ciddi qəbul edirlər. Çox kobud yazı isə şəxsin gərginliyindən xəbər verir. Onu tənqid edənlərə qarşı çox qəzəblidir. Çox incə yazılar isə mühitə və insanlara olan həssaslığı təmsil edir.

Mənbələrdə göstərilir ki, yazı xəttinin ölçüsü insanın ünsiyyətçillik səviyyəsini müəyyən edir. Belə ki, iri xətt sahibləri daha ünsiyyətçil və istiqanlı olurlar. Xırda xətt isə insanın özünə qapalılığı və gizliliyi haqqında xəbər verir. Yumru yazı xəttinə malik insanlar isə mehriban və nəzakətli olurlar. Yazı yazarkən qələmə təzyiq göstərərək az qala dəftəri yaran adamlar iradəli və güclü olurlar. Əksinə olaraq yazıda qələmə güc verməyib, əlini rahat buraxan insanlar bir qədər arxayın və səbirli insanlardır.

Kalliqrafik xətt insanı səliqəli və məsuliyyətli insan kimi xarakterizə edir. Anlaşılmaz xətt sahibinin enerjili, qayğısız və bir qədər əsəbiliyindən xəbər verir.

Bitişik xətt (bütün hərifler bir-birinə birləşəndə) insanın məntiqli düşüncəyə sahib olduğunu izah edir. Yox, əgər həriflər bir-birindən aralıdırsa, bu, insanın güclü intuisiyaya sahib olduğu anlamına gəlir.

Optimist insanlarda sətirlər başlanğıcdan sona doğru yüksəlir. Pessimistlərdə isə əksinə olaraq aşağı enir. Düz sətirlər realistləri xarakterizə edir, hansı ki bu insanlar həmişə sakit olur və hər şeyə təfəkkürlə yanaşır.

Yaxşı, səhərdən bəri sadaladığımız bu yazı xətlərinə harada rast gəlinə bilər ki, kimlərinsə xasiyyəti də müəyyən edilsin? İndi bir-iki sənəddən başqa, əl yazısı demək olar ki, yoxdur. İnsanlar uzun illər yazmadıqlarına görə xətləri də itib-batıb. Məsələn, otuz-qırx adam yazı yazmağa cəlb olunarsa, onların hər birinin xətti uzun illər yazmadıqlarına görə yalnız anlaşılmaz təsir bağışlayacaqdır. Beləliklə də qrafologiya adlı elm də məhvə doğru getməkdədir. Hansı ki, bu elm insan xarakterinin öyrənilməsində böyük əhəmiyyət kəsb edib. İnsanlar var, yazı, xətt yoxdur, deməli, şəxsləri xətlərlə öyrənən elm də yoxdur. Bir neçə il sonra isə bütün bunların acı nəticələri ilə daha çox rastlaşacağıq. Çünki hələlik orta yaş qrupundan olan insanların yazmaq bacarığı, xətti var. Lakin qarşıda bizi hüsnxətsiz bir gələcək gözləyir.

***Mətanət Məmmədova***

# Əli Kərimli həbs oluna bilərmi?

## AXCP NTK-nın sədri Aydın Əliyev avqustun 26-da Əli Kərimlinin məhkəmə qərarı ilə həbs olunacağına ümid edir

Səhv, yanlış addımların və ya əməllərin ağır nəticəsi olmalıdır. Əks halda insanlar küsgün, cəmiyyət ədalətsiz olar. Görünən ondan ibarətdir ki, bəzi məxluqlar tərəfindən nə qədər haqsızlıqlara yol verilsə də, nəhayət, haqq-ədalət öz yerini tapır. Fikir verin, uzun illərdir ki, AXCP sədri Əli Kərimli milli və dövlətçilik maraqlarına zidd addımlar atır, açıqlamalar verir, sosial şəbəkələrdə paylaşımlar edir, lakin nə özü əməllərini dayandırır, nə də onu kimsə durdurur. Düzdür, dəfələrlə rəhbərlik etdiyi partiyasında etirazlar olub, hətta kütləvi istefalar, qopmalar da baş verib. Ancaq ciddi hərəkətlik qeydə alınmayıb. Yəni partiya daxilində istefasını tələb edənlər ehtiyatlı davranış nümayiş etdiriblər. Bu da təbii ki, onların Ə.Kərimlinin qəzəbinə tuş gəlib, partiyadan xaric oluna biləcəkləri qorxusundan irəli gəlir. Ancaq AXCP Nəzarət Təftiş Komissiyasının sədri Aydın Əliyevin Nəsimi rayon məhkəməsində Əli Kərimliyə qarşı xüsusi ittiham qaydasında iddia qaldırması onu deməyə əsas verir ki, artıq bəzi cəbhəçilər qorxunu və zəifliyi adlamağa başlayırlar. Söz yox ki, A.Əliyev tək deyil, ona partiyanın əksər üzvləri dəstək verirlər. Sadəcə, kənarda dayanıb sosial şəbəkələr üzərindən sözlərini deyən, istəklərini ifadə edən A.Əliyevə yardımçı olurlar. Məhz bundan təşvişə düşən Əli Kərimli səfirliklərə üz tutaraq onlardan kömək istəyir. Hətta hüquqi müstəvidə atılan addımları siyasiləşdirməyə çalışır. Amma başa düşmür ki, Azərbaycan hüquqi dövlətdir və hər bir məsələ qanunlarla tənzimlənir. Qanunlar isə heç də Ə.Kərimlinin xeyrinə deyil. Çünki AXCP Nəzarət Təftiş Komissiyasının keçmiş sədri Aydın Əliyevin Ə.Kərimliyə qarşı qaldırdığı iddia kifayət qədər əsaslıdır və haqlıdır. ”Səs” qəzetinə açıqlamasında AXCP Nəzarət Təftiş Komissiyasının sədri Aydın Əliyev bildirdi ki, avqustun 26-da Nəsimi rayon məhkəməsində qaldırdığı iddia əsasında məhkəmə baxışı keçiriləcək. O, ümid etdiyini bildirdi ki, məhkəmə onun iddiasına baxaraq ədalətli qərar çıxaracaq.



### Aydın Əliyev: ”AXCP-də açıq fikir söyləyənlər, demokratik idarəetmə tələb edənlər sərt şəkildə cəzalanırlar”

A.Əliyev məhkəməyə təqdim etdiyi ilkin iddiada Ə. Kərimlinin Cinayət Məcəlləsinin 147.1-ci (böhtan) maddəsilə cəzalandırılmasını tələb edirdi, avqustun 19-da keçirilən hazırlıq iclasında isə məhkəməyə daha bir şikayətini əlavə edib. Bu barədə Nəsimi rayon Məhkəməsinin hakimi Babək Pənahov məlumat verərək bildirib ki, Aydın Əliyev Ə.Kərimli haqqında məhkəməyə həm də Cinayət Məcəlləsinin 148-ci (təhqir) maddəsini əlavə edib. ”Səs”-ə açıqlamasında A.Əliyev Əli Kərimli haqqında məhkəməyə təqdim etdiyi əlavə şikayətini onunla əlaqələndirdi ki, Ə.Kərimli Sevinc Osmanqızının, Q.Zahidovun və digər xaricdəki azərbaycanlı mühacirlərin yaratdıqları internet TV-lərdə onun şərəf və ləyaqətini təhqir edib: ”Əli Kərimli sözdə demokratiyadan. Söz azadlığından danışır, əməldə isə partiya daxilində sərt diktatura rejimi yaradıb. Açıq fikir söyləyənlər, demokratik idarəetmə tələb edənlər sərt şəkildə cəzalanırlar”. A.Əliyev Ə.Kərimli ilə aralarında yaranan problemin əsas səbəbini 27 sentyabr 2015-ci ildə AXCP-nin qurultayında Nəzarət Təftiş Komissiyasına üzv, sonra isə sədr seçilməsi olub: ”Partiyadaşlarının ona yüksək etimad göstərməsi, Ə.Kərimlinin ürəyincə olmayıb. Bütün imkanları ilə onun partiya nizamnaməsinin tələblərinə uyğun olaraq fəaliyyət göstərməsinə imkan verməyib. Nəhayət, AXCP Ali Məclisinin Rəyasət Heyətinə təzyiqlər etməklə 10 iyun 2019-cu il də onu partiya sıralarından xaric edib”.

### ”Qurultayda Ə.Kərimlinin göstərişi əsasında məni fitə basdılar, təhqir etdilər”

Aydın Əliyev bildirdi ki, AXCP Ali Məclisinin Rəyasət Heyətinin qərarı ilə razılaşmayaraq yığıncağın qərarının ləğv edilməsi, AXCP üzvlüyünə və AXCP Nəzarət Təftiş Komissiyasının sədri vəzifəsinə bərpa olunması iddiası ilə Nəsimi rayon Məhkəməsində iddia qaldırıb: ”Məhkəmə 2020-ci ilin iyun ayında iddiamı təmin etdi. Əli Kərimli həmin qərardan şikayət versə də, Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etmədi. Əli Kərimli məhkəmə qərarından sonra mənimlə görüşdü və söz verdi ki, NTK sədri kimi normal fəaliyyət göstərməsi üçün ona hər cür şərait yaradılacaq. Hətta mənimlə görüş əsnasında partiyanın təşkilat şöbəsinə də zəng edib, göstərişlər verdi. Lakin sonradan sözünün üstündə durmadı. NTK-nın üzvləri çağırılan toplantılara gəlmədilər. Bu məsələdə Ə.Kərimlinin göstərişi olduğu şübhəsizdir. Bu azmış kimi partiyanın növbəti qurultayı keçirilən zaman kobud nizamnamə pozuntularına yol verildi. Mən buna etiraz etdikdə Ə.Kərimlinin göstərişi əsasında məni fitə basdılar, təhqir etdilər. Mən isə səbirli oldum və qurultayın nəticələrinin ləğv edilməsi və növbəti qurultayın keçirilməsi barədə məhkəmədə iddia qaldırdım. Təşəkkür edirəm ki, məhkəmə mənim iddiamı təmin etdi”.

Yuxarıda qeyd etdiyimiz kimi, qanunvericiliyə görə bütün hallarda A.Əliyev haqlıdır. Ə.Kərimli özü də dərk edir ki, A.Əliyev tərəzinin ağır tərəfidir. Sadəcə, özünəvurğunluq və partiya daxilində yaratdığı diktatura idarəetməsi ona A.Əliyevin tələblərini qəbul etməyə imkan vermir. Əksinə, hay-küy qaldırmaqla özünü əzilən, ”təzyiqlərə məruz qalan şəxs” olaraq göstərməyə çalışır. Yaradılan bu şou ilə Ə.Kərimli diqqət mərkəzinə çevrilməyə və sonrakı mərhələdə daha çox qrant almağa ümid edir. Bu isə siyasətçi adına iddia edən şəxs üçün utancverici hərəkətdir. Belə yolla uzağa getmək təbii ki, mümkün deyil. Necə ki, Ə.Kərimli öz yanlış, səhv əməllərinin bədəlini ödəməkdədir. Yəqin ki, avqustun 26-da keçiriləcək məhkəmə prosesində A.Əliyev bir daha haqlı olacaq və Ə. Kərimliyə və Ə.Kərimli kimi düşünən, pozucu əməllər törədənlər üçün dərs ola biləcək məhkəmə qərarı çıxarılacaq.

***İLHAM ƏLİYEV***

# ABŞ Suriyadakı kürd döyüşçüləri silahlandırır

***Bayden administrasiyası Suriyadakı kürd qüvvələrinə ”Avenger” qısa mənzilli özüyeriyən hava hücumundan müdafiə sistemləri (SAM) göndərməklə onların mövqelərini gücləndirməyə çalışır. Müxalifətin Türkiyəyə yaxın portalları belə yazıblar: ”Pentaqon kürd döyüşçülərinə bu hava hücumundan müdafiə sistemindən istifadə üzrə təlim keçirməyə başlayıb. Suriyadakı müttəfiqlərinin ABŞ-dan hərbi yardım tələbi var”.***

Pentaqonun Suriyanın şimal-şərqinə ”Avenger” hava hücumundan müdafiə sistemlərinin yeni partiyasını göndərməsi faktını Ankaraya yaxın müxalifətin nəzarətində olan Suriya televiziyası bildirib. Onun sözlərinə görə, amerikalı təlimatçılar hətta kürd qoşunlarının üstünlük təşkil etdiyi paramilitar alyans olan Suriya döyüşçülərinə bu hava hücumundan müdafiə sistemlərindən istifadə üzrə təlim keçmək qərarına gəliblər. Suriya televiziya mənbələri muxtar bölgəyə hava hədəflərini, o cümlədən pilotsuz təyyarələri zərərsizləşdirmək üçün istifadə edilə bilən komplekslərin göndərilməsini taktiki manevr deyil, strateji qərar adlandırır. Bunun təkcə Suriyanın şimal-şərq bölgələri üçün deyil, həm də qonşu ərazilər üçün nəticələri ola bilər.



İndi DSS-ə nəzarət edən üsyançı bölgə bir sıra problemlərlə üzləşir. İrana yaxın şiə birləşmələri Qəzzadakı müharibə səbəbindən orada yerləşdirilən Amerika kontingentinə hərbi təzyiqi artırmağa çalışır. Eyni zamanda kürd nizamından narazı qalan ərəb tayfaları kürd birləşmələrinə əsl müharibə elan ediblər. Bu ay Deyr əz-Zor əyalətinin kəndlərində kürd komandirlərinin Dəməşq və Tehrandan kütləvi dəstək aldığını bildirən qəbilə qruplaşmalarının yüksəlişi müşahidə olunub. İran qüvvələrinə yaxın telekanallar hətta iddia edirdilər ki, Amerika kontingenti kürdlərlə birgə qəbilələrin hücumlarını dəf etməyə çalışır, kütləvi atəş açıb və döyüş təyyarələrindən istifadə edir.



Hələ fevral ayında Pentaqonun Baş Müfəttiş Ofisi Amerikanın protektorat zonasında ərəb qəbilə strukturlarının qiyamının təxminən altı ay ərzində ”tam hüquqlu müqavimət hərəkatına” çevrilə biləcəyini bildirən bir hesabat yaymışdı. Tənzimləyicinin fikrincə, ərəb qrupları 2023-cü ilin avqust-sentyabr aylarından etibarən yüksək səviyyədə özünü təşkil etməyə nail olublar. ”Qəbilə döyüşçüləri Suriya rejimi və onun Fərat çayının qərb sahilindəki İran müttəfiqlərindən açıq dəstək alan tam hüquqlu müqavimət hərəkatına çevriliblər, burada müqavimət döyüşçüləri tədarük edir, silahlandırır və hücumlar təşkil etmək imkanı əldə edir”. araşdırma qeyd edib.

Kürdlərin güclü hava hücumundan müdafiə sistemləri ilə təchiz edilməsi zərurəti ilə bağlı səslər Vaşinqton isteblişmentində bir neçə dəfə - əsasən Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın tənqidçilərindən eşidilib. Bir neçə il əvvəl amerikalı Yaxın Şərq eksperti Maykl Rubin Bayden administrasiyasını ”Suriyadakı kürdləri özünümüdafiə vasitələri ilə” - Türkiyənin müntəzəm hava hücumlarına qarşı mübarizə aparmağa imkan verəcək yüksək keyfiyyətli hava hücumundan müdafiə sistemləri ilə təmin etməyə çağırmışdı. Ötən noyabrda Türkiyənin ”Star” qəzeti mənbələrə istinadən yazıb ki, Pentaqonun həqiqətən də kürd qoşunlarına ”Qisasçı” göndərməyi nəzərdən keçirir. Lakin o zaman bu mesajlar heç bir əlavə təsdiq almamışdı.



Bununla belə, Britaniyada yerləşən Suriya İnsan Haqları Müşahidə Qrupu (SOHR) avqustun 19-da bəyanat yayıb ki, SDQ-nin ”Qisasçı”dan istifadə etmək üçün təlim keçdiyi barədə xəbərlər Türkiyə kəşfiyyatı tərəfindən Suriyanın şimal-şərqində yerüstü əməliyyatın başlamasına haqq qazandırmaq üçün qəsdən təbliğ edilir.

SOHR mənbələri bildiriblər ki, bu hava hücumundan müdafiə sistemləri adi şəxsi heyətə qarşı təhdidləri dəf etmək üçün müstəsna olaraq ABŞ hərbi obyektlərində yerləşdirilir. Beləliklə, bu məlumatlara görə, təxminən bir ay əvvəl Əl-Şəddad bazasına təxminən 40 Avenger bölməsi gəldi və burada potensial hava hücumlarından, xüsusən də dronlardan istifadə etməklə qorunmaq üçün digər obyektlər arasında paylandı. Söhbət İranla bağlı birləşmələrin təhdidlərinin zərərsizləşdirilməsindən gedir. SOHR Avenger maşınlarının hər birinin istismarda kifayət qədər böyük təcrübə tələb edən qabaqcıl texnologiyalardan istifadə etdiyini aydınlaşdırır.

Türkiyə ən yüksək səviyyədə dəfələrlə bu yay Suriya və İraqdakı sərhəd bölgələrini kürd qoşunlarından təmizləməyə söz verib. Kürdüstan Fəhlə Partiyasının (PKK) silahlı qanadı oktyabrın əvvəlindən Daxili İşlər Nazirliyinin Təhlükəsizlik Baş İdarəsinin Türkiyənin paytaxtındakı binası qarşısında partlayış təşkil etdikdən sonra Ankaranın Suriyanın şimalına hücumlarını intensivləşdirib. Daha sonra Türkiyə silahlı qüvvələri Milli Kəşfiyyat Təşkilatının (MİT) dəstəyi ilə cənub sərhədi boyunca kürd qüvvələrinin əsas dayaq məntəqələrinin atəşə tutulmasını intensivləşdirib.

***V.SALAH***

# "Qafqazda oyun qaydalarını Bakı və Moskva müəyyən edir" - RUSİYALI EKSPERTLƏR

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

## İlham Əliyevlə Vladimir Putinin Bakı görüşünün əsas məqamları, ümumiyyətlə Rusiya-Azərbaycan münasibətləri haqda rusiyalı ekspertlər nə düşünür?



***Avqustun 19-da Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri başa çatıb. Səfərdən sonra iki ölkənin liderləri mətbuata açıqlamalar veriblər. Azərbaycan prezidenti İlham Əliyev Rusiya liderinin səfərini ölkələr arasında dostluq və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verəcək tarixi hadisə adlandırıb. Vladimir Putin də öz növbəsində səfərin yekunlarından məmnunluğunu bildirib və əldə olunan razılaşmaların Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyini qeyd edib. Vladimir Putinin Azərbaycana səfəri mətbuatda, eləcə də Rusiya ekspert birliyində ən çox müzakirə olunan mövzulardan biri olmaqda davam edir.***

Rusiyalı politoloqlar "Caliber" analitik mərkəzinə şərhlərində Azərbaycan və Rusiya arasında ikitərəfli qarşılıqlı əlaqələrin iqtisadi və siyasi aspektlərini izah edib, Rusiya Federasiyası rəhbərinin Azərbaycana səfərinin yekunlarına dair fikirlərini bildiriblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Rusiya Beynəlxalq Məsələlər Şurasının aparıcı eksperti Aleksey Naumov hesab edir ki, Vladimir Putinin Bakıya səfəri, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında müttəfiqlik amilini, ən əsası isə Müttəfiqlik Əməkdaşlığı Bəyannaməsinin işlək olduğunu təsdiqlədi.



"Prezident Əliyev bunu birbaşa bildirdi və bu, Bəyannamənin etibarlı olmadığını, onun ratifikasiyaya ehtiyac olduğunu və s. deyənlərə aydın və məqsədyönlü mesajdır. Bu, ilk məqamdır. İkincisi, əgər konkret olaraq liderlərin görüşünün mühüm aspektlərindən danışırıqsa, o zaman, fikrimcə, tərəflər qaz əməkdaşlığından, "Şimal-Cənub"dan çox təmkinlə danışdılar, baxmayaraq ki, təbii ki, qarşılıqlı iqtisadi fəaliyyət, bir qayda olaraq, qarşılıqlı siyasi fəaliyyətdən asılıdır.

Amma mən ən əsas olanı qeyd edərdim. Rusiya və Azərbaycan bu gün yeni dünya nizamı qurur. Lakin bu, o demək deyil ki, müttəfiq ölkələr bundan uzaq, ya da hər şeydə birgə hərəkət edirlər. Bu, onu deməyə əsas verir ki, müttəfiq dövlətlər öz maraqlarından çıxış edirlər, lakin bir-birlərinin maraqlarını nəzərə alırlar. Düşünürəm ki, yeni dünya nizamı belə görünür. Biz öyrəşmişik ki, əgər iki ölkə müttəfiqdirsə, o zaman hər şeydə birgə hərəkət etməlidir, lakin bu yanaşma güclü tərəfin meydana çıxmasına gətirib çıxarır. Bu, xüsusilə öz siyasətini dünyaya sırıyan ABŞ-ın timsalında aydın görünür.

Rusiya və Azərbaycanın timsalında isə biz incə nüansları nəzərə alaraq bir-birinə qarşılıqlı maraqlar anlayışı ilə yanaşan iki suveren dövlətin əsl ittifaqını görürük.

Bu gün Moskva ilə Bakı arasında ciddi fikir ayrılıqları yoxdur, baxmayaraq ki, nəzəri cəhətdən bu da baş verə bilər və bu normaldır və heç bir halda konstruktiv ikitərəfli gündəliyə təsir etməyəcək. Azərbaycan Rusiyanın Cənubi Qafqazda əsas tərəfdaşına çevrilib ki, bu da Ermənistan tərəfinin tamamilə qəbuledilməz davranışı fonunda və Gürcüstanın siyasi mənzərəsindəki dalğalanmalar və qeyri-sabitlik fonunda xüsusilə nəzərə çarpır. Bu iki Cənubi Qafqaz ölkəsindən fərqli olaraq, Azərbaycan sabit və proqnozlaşdırıla bilən ölkədir. Üstəlik, Azərbaycanın Rusiyanın əsas tərəfdaşlarından birinə çevrilməsi birbaşa Rusiyanın kursundan və ya prezident Putinin siyasətindən asılı deyil. Reallıq budur ki, İlham Əliyev heç vaxt kənardan gələn sifarişlə hərəkət etmir, həmişə öz ölkəsinin maraqlarını güdür.

Moskva da öz növbəsində bunu çox yaxşı başa düşür. İlham Əliyev heç vaxt Rusiyaya xəyanət etməyib, onun düşmənləri ilə danışıqlar aparmayıb, təbii ki, Moskva bunu yüksək qiymətləndirir və münasibətləri yaxın dostluq prinsipi əsasında qurmağa çalışır. Ona görə də deyərdim ki, bu, indiki dünya şəraitində bir çox ölkələr üçün örnək olan yeni tipli, yeni mənada səfər idi",- deyə A.Naumov yekunlaşdırıb.

Rusiyalı ekspert Aleksandr Razuvayevin fikrincə, Azərbaycan Rusiyaya ən dost ölkələrdən biridir və bunu aşağıdakı faktlar sübut edir.

"Birincisi, Azərbaycan NATO və Avropa İttifaqına daxil olmağa çalışmır. Cənab Əliyev açıq şəkildə bəyan edib ki, Azərbaycan Ukraynaya silah verməyəcək. İkincisi, Azərbaycanda 1 milyona yaxın insan rus dilində təhsil alır. Azərbaycan Prezidenti İlham Əliyev isə MDBMİ-nin məzunu və keçmiş müəllimi, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini Heydər Əliyevin oğludur. Üçüncüsü, xüsusilə qeyd etmək lazımdır ki, İlham Əliyev və Vladimir Putin 2022-ci ildə Azərbaycan və Rusiya arasında müttəfiqlik əməkdaşlığı haqqında Bəyannamə imzalayıblar. İkitərəfli ticarət-iqtisadi əməkdaşlıq da yaxşı səviyyədədir ki, təkcə ilin 1-ci yarısında Rusiya ilə Azərbaycan arasında ticarətin həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 5,2% artaraq 2,57 milyard dollar təşkil edib. Azərbaycanda Rusiya kapitallı 1270-dən çox müəssisə işləyir. Nəqliyyat digər vacib ümumi sahədir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin qərb hissəsi Azərbaycan ərazisindən keçir. Rusiya və Azərbaycan şirkətləri neft və qazı, o cümlədən Xəzər dənizinin şelfində hasil edir, yanacağın emalı və nəqli ilə məşğul olurlar.



2024-cü ildə Azərbaycanda qaz hasilatının 50 milyard kubmetrə çatacağı gözlənilir. Bu həcmin 50 faizini ixrac etmək, qalan 50 faizini isə daxili istehlak üçün istifadə etmək planlaşdırılır. Eyni zamanda, Azərbaycan daxili istehlak üçün Rusiyadan qaz almaqla ixracı artıra bilər. Yəni, Azərbaycan daxili istehlakı təmin etməklə Rusiyadan qazı daha rahat qiymətə alır. Eyni zamanda, ixrac üçün öz qazının tədarükünü kəskin şəkildə artırır. Avropa məhz Azərbaycan qazı hesabına Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətini 16 milyard kubmetrdən 32 milyard kubmetrə çatdırmaq istəyir.

"Qazprom"un hazırkı bazar qiymətlərindən ucuz olacağı ehtimalı azdır və bəlkə də bu, yaxşı dividendlər ümidi ilə qaz holdinqinin səhmlərini almaq üçün ilk səbəbdir. "Qazprom"un elektrik və neft biznesi müsbət irəliləyişdədir, yeganə problem qaz seqmentindədir. Avropa bazarının itirilməsi "Qazprom"un hazır olmadığı vergi yükünün kəskin artması ilə üst-üstə düşdü. İkitərəfli qarşılıqlı fəaliyyətin siyasi komponentinə gəlincə, Moskva Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanmasına, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyasına kömək etməyə hazır olaraq qalır. Şübhəsiz ki, Cənubi Qafqazda, gərginlik ocağı heç kimə lazım deyil, ilk növbədə də Rusiyaya. Fikrimcə, Ermənistanın Fransanın və ya digər Qərb dövlətinin köməyi ilə Qarabağda qisas almaq cəhdləri uğursuzluğa məhkumdur və bu, Ermənistanın özünün dövlətçiliyi bahasına başa gələ bilər. Burada nəzərə almaq lazımdır ki, Ermənistan və Azərbaycanın iqtisadi və hərbi potensialı müqayisəedilməzdir. Və əgər üçüncü tərəf Ermənistan naminə münaqişəyə müdaxilə edərsə, Türkiyənin də bitərəf qalacağı ehtimalı azdır",-A.Razuvaev deyir.

Rusiyanın dövlət və ictimai xadimi Sergey Markov hesab edir ki, Vladimir Putinin Azərbaycana səfəri mahiyyət etibarı ilə həm də onun göstəricisidir ki, Rusiya Cənubi Qafqazda əsas müttəfiqi və tərəfdaşı olan Ermənistanı Azərbaycanla əvəz edib.



"Otuz ildən artıqdır ki, Ermənistan mürəkkəb, lakin yenə də Rusiyanın regional müttəfiqi olub. Ermənistanın Qərbə üz tutaraq anti-Rusiya siyasəti nümayiş etdirməsi, Qərbin isə öz növbəsində erməniпərəst və antiazərbaycan mövqe tutması əslində Moskva ilə Bakını daha da yaxınlaşmağa və strateji müttəfiqliyə sövq edib. İnanıram ki, bu vəziyyətdə Bakı Ermənistan-Azərbaycan nizamlanmasında Qərbin vasitəçiliyindən imtina edəcək. Əgər Ermənistanla yaxşı münasibətlərlə yanaşı, sülh sazişinin bütün əsas məsələlərində Azərbaycanın şərtlərini dəstəkləsələr, Azərbaycan Qərbin vasitəçiliyinə razı ola bilər. Əgər Qərb əvvəlki antiazərbaycan siyasətini davam etdirsə, o zaman onun Ermənistan-Azərbaycan nizamlanmasında vasitəçi rolu da Bakı tərəfindən əngəllənəcək. İnanıram ki, Azərbaycan bunu çox yumşaq və diplomatik şəkildə edəcək",- deyə S.Markov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

22 avqust 2024-cü il

# Uşaqları küsərək cəzalandırmaq doğrudur?



## PSİXOLOQ AÇIQLADI

"Uşaq tərbiyəsində mükafat və cəza mühüm rol oynayır. Valideynlərin tətbiq etdikləri yanlış cəza metodları uşaqda mənfi davranışı düzəltmək əvəzinə onu intiqam xəyallarına yönəldə bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib. Onun sözlərinə görə, ilk növbədə, uşağı hansı mənfi davranışına görə cəzalandırdığınızı ona izah etməlisiniz: "Cəza müddətli olmalı və düzgün seçilməlidir".

Psixoloq sözlərinə belə davam edib: "Təəssüf ki, valideynlər məlumatsızlıq səbəbi ilə uşaqlara yanlış cəza metodları tətbiq edirlər. Döymək, qaranlıq otaqda saxlamaq, ac saxlamaq kimi fiziki şiddətdən əlavə, emosional şiddət də göstərirlər. Emosional cəzalardan biri də mənfi davranışına görə uşaqdan küsməkdir. Valideyn uşaqdan küsdüyü müddətdə uşaq özünü günahkar hiss edər, özgüvəni sarsılar və nəticədə böyüdükdən sonra ya sevgi dilənər, ya da aşırı sevgi verən biri olar".

*Ayşən Vəli*

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK

Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "İbo"nun paylaşımları qızını qıcıqlandırıb

***Məşhur türkiyəli müğənni İbrahim Tatlısəslə münasibətləri kəskinləşən qızı Dilan Çıtak arasında yeni gərginlik yaşanır. Buna da səbəb "imperator" ləqəbli müğənninin öz sosial şəbəkə hesabında qızını qıcıqlandıran şərhlər yazmasıdır. D. Çıtak da sosial şəbəkədəki paylaşımına verdiyi şərhlə gündəmə gəlib.***



O, atasının paylaşımlarına səssiz qalmayaraq "Bu qədər açıq-saçıq çağırmayın, sadəcə olaraq buraxın, ruhunuzu və insanlığınızı rahat buraxın" deyib.

## 24 yaşlı futbolçu İngiltərədə ötən mövsümün ən yaxşısı seçildi

İngiltərə Peşəkar Futbol Assosiasiyasının (PFA) versiyasına görə, İngiltərə Premyer Liqasında 2023/24 mövsümünün ən yaxşı futbolçusu mükafatının qalibi müəyyənləşib. Bu, "Mançester Siti"nin 24 yaşlı vingeri Fil Fodendir.

24 yaşlı futbolçu ötən mövsüm İngiltərə çempionatında 35 matçda iştirak edib, 19 qol vurub, 8 qolun ötürməsini verib. Onun klubla hazırkı müqaviləsi 2027-ci ilin yayına kimi nəzərdə tutulub.



## Xırdalanda terminalı sındırıb pul oğurlayan şəxs saxlanılıb

Xırdalanda usta işlədiyi obyektdən oğurluq edib. Bu barədə SİA-ya DİN-in Mətbuat Xidməti məlumat verib. Bildirilib ki, avqustun 19-u saat 17 radələrində Xırdalan şəhərində yerləşən marketlərin birində quraşdırılmış ödəmə terminalının sındırılaraq 550 manat oğurlanması barədə polisə məlumat daxil olub. Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində hadisəni törətmiş marketi təmir edən usta Xalid Xubalıyev saxlanılıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700